38_27 IYUl-QARA.qxd 10/31/2024 9:46 PM Page 1


# UNİKAL

№40 (2222) 1 noyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az


# Dövlət rəsmiləri COP29-la bağlı toplandı: PA rəhbəri tapşırıqlar verdi




Səh.9



## Teymur Musayev tənqid hədəfində

*2023-cü ildə 162 azərbaycanlı həkim Almaniyada qeydiyyatdan keçərək peşə fəaliyyətinə başlayıb. Bu barədə bir müddət öncə Alman Tibb Assosiasiyasından bildirilmişdi. Məlumatda qeyd olunur ki, hazırda Almaniyada həkim fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşlarının sayı 1521 nəfərə yaxındır. Həkim kimi çalışmaq istəyən 200-ə yaxın azərbaycanlı isə müxtəlif klinika və hospitallarda təcrübəyə cəlb olunub. Bundan əvvəl isə Almaniyanın Bad Salzungen Xəstəxanasının Qulaq, burun, boğaz xəstəlikləri və üz plastik cərrahiyyə klinikasının şöbə müdiri Cavid Hüseynzadə Azərbaycandan Almaniyaya gedən həkimlərlə bağlı paylaşım etmişdi. Belə ki, o, Alman Tibb Assosiasiyasının 2022-ci ilin dekabrına olan nəticələrə əsasən, adı çəkilən ölkədə...*

Səh.5

## “Hökumət keyfiyyətin yoxlanmasının başqa yollarını tapmalıdır”



*İqtisadçı-ekspert Xalid Kərimli ”Unikal”a müsahibə verib. O, alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyənləşməsindən, bu addımın saxta içkilərin qarşısını necə alacağından və qiymətin artmasının alkoqollu içkilərdən istifadə edənlərin sayına necə təsir edəcəyindən danışıb.*

Səh.4

## Mehriban Əliyeva körpələr evinin açılışında



*Oktyabrın 31-də Bakının Xətai rayonundakı Alim Məmmədov adına uşaq bağçası-körpələr evi təmirdən sonra yenidən istifadəyə verilib. ”Unikal” xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri bağçada yaradılmış şəraitlə tanış olublar.*

Səh.2

## Hikmət Həsənovun köməkçisi ağır cəzalandırıldı



*“Tərtər işi” üzrə mühakimə olunan sonuncu dəstənin məhkəmə araşdırması başa çatıb. ”Unikal” “Qafqazinfo”ya istinadən xəbər verir ki, Bakı Hərbi Məhkəməsində keçirilən bugünkü iclasda hökm oxunub. Sədrlik edən hakim Zeynal Ağayev elan edib ki, təqsirləndirilən şəxslərə verilmiş ittihamlar məhkəmə istintaqı ilə təsdiqini tapıb.*

Səh.3

38_27 IYUl-QARA.qxd 10/31/2024 9:48 PM Page 2



# Ağadadaş Ağayev məhkəməyə gəlmədi - Həbsi tələb edildi



***Xalq artisti Ağadadaş Ağayevin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Binəqədi Rayon Məhkəməsinin hakimi Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs Ağadadaş Ağayev prosesə gəlmədiyi məlum olub.

O, məhkəməyə səhhəti ilə əlaqədar iştirak edə bilməyəcəyi ilə bağlı teleqram göndərib. Zərərçəkmiş Nəzakət Paşayevanın vəkili Gülşən Salmanova isə Ağadadaş Ağayevin məhkəməyə gəlməməsinə etiraz edib. Onun barəsində həbs qətimkan tədbiri seçilməsi ilə bağlı vəsatət verib.

Məhkəmə qısa müşavirədən sonra vəsatəti təmin etməyib. Məhkəmənin növbəti iclası noyabrın 14-nə təyin edilib.

Xatırladaq ki, hadisə bu ilin iyulunda baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb. Mühafizəçi Nurəddin Cəlilov isə Xalq artistini döyüb. Balta isə klinikada çalışan qadın N.Paşayevaya dəyərək xəsarət yetirib. Təqsirləndirilən şəxsə qarşı Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq-silah qisminde istifadə olunan əşyalardan istifadə etməklə törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

***Seymur Əli***

# Vasif Məhərrəmli qızının istəyini gerçəkləşdirmədi



***Əməkdar artist Vasif Məhərrəmli qızı Əfşanın arzusunu gerçəkləşdirməyib.***

"İncə səhər" proqramı bununla bağlı ifaçıya sual ünvanlayıb. Belə ki, V.Məhərrəmli övladına universitetə qəbul olduğu halda avtomobil alacağına söz verib. Amma müğənni hələ də bu sözünü gerçəkləşdirməyib.

Bunun səbəbini açıqlayan V.Məhərrəmli "Əfşan maşın sürməyə hazır deyil. İndi yavaş-yavaş öyrənir. "Mini Cooper" istəyir. İnşallah, birtəhər toparlanıb alarıq. Qızım 660 bal topladı və ADA Universitetinin hüquq fakültəsini bitirdi. İndi işləyə-işləyə magistraturaya qəbul olmaq istəyir. Onun istəyi xaricdə təhsil almaqdır. Xeyirlisi nədirsə, o, olsun" sözlərini əlavə edib.

Qeyd edək ki, V.Məhərrəmlinin bir oğul övladı da var.



## Fərda ilə Müşviq barışdı

***Aktyor Müşviq Şahverdiyev həmkarı Fərda Xudaverdiyevlə barışdığını açıqlayıb.***

Aktyor bu haqda "El Canlı" verilişində danışıb. O, sənəd adamları ilə tez-tez küsüb barışması haqda suala belə reaksiya verib: "Bu camiyədə tək mən yox, hamı küsür və barışır. Normal haldır. Fərda ilə barışmışıq. Növbəti küsülülüyüm 2025-də olar. Hələ bir yerdəyiq".

Qeyd edək ki, bir müddət əvvəl Fərda açıqlamasında Müşviqlə küsülü olduqlarını deyib.

## "Bu adam elə bil məni məsciddə görüb alıb" - Afətdən ərinə

***ARB TV-nin "Həmin Zaur" verilişində Afət Fərmanqızı həyat yoldaşından danışdı.***

Milli.Az xəbər verir ki, verlişdə qonaq olan müğənni Afət Fərmanqızı həyat yoldaşı ilə mübahisəsinin səbəbini açıqlayıb: "Sənət yoldaşlarım "whatsapp" yazışmasında mənə smaylik göndərir, yoldaşım da soruşur o nədir? Sənə niyə "ürək" göndərirlər? İlahiyyat müəlliməsi idim mən? Bu adam elə bil məni məscidde görüb alıb, müğənniydim də. Mən çətin adam deyiləm. Düz adama çətin demək olarsa, qoy onda çətin olum".

## Röya: "Evimin damı uça da bilərdi..."

***Xalq artisti Röya Ayxan "İncə səhər" verilişində açıqlaması ilə diqqət çəkib.***



"Unikal" teleqraf.com-a istinadən bildirir ki, Röya Ayxan bu sözləri deyib: "Özüm şükür edən insanam, şükür edənləri də çox sevirəm. Evimin damını su basdı. Ona da şükür etdim, dam uça da bilərdi. Məsəl üçün dedim...".

## "Orada yalnız layiq olduğunuzu verirlər" - Aysel Teymurzadə

***"Avroviziya" təmsilçilərimizdən olan Aysel Teymurzadə sosial şəbəkədəki paylaşımı ilə diqqət çəkib.***

Aysel instaqram səhifəsinin hekayə bölməsində bunları yazıb: "Gec-tez hamı "Karma" restoranına baş çəkəcək. Orada menyu yoxdur, yalnız layiq olduğunuzu verirlər".

Qeyd edək ki, Aysel Azərbaycan Dövlət Filarmoniyasının direktoru M.Adıgözəlzadə ilə ailəlidir. Cütlüyün 3 övladı var. Bir neçə ay əvvəl M.Adıgözəlzadənin Aysellə xəyanət etdiyi haqda xəbərlər yayılmışdı.

38_27 IYUl-QARA.qxd 10/31/2024 9:49 PM Page 3





## Tağı Əhmədovun hakim oğlu cəzalandırılacaq

***Nizami Rayon Məhkəməsinin hakimi Rauf Əhmədovun cəzalandırılması üçün xüsusi qərar çıxarılıb.***

"Unikal" Oxu.az-a istinadən xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsi sözügedən qərarı Məhkəmə-Hüquq Şurasına göndərib.

Səbəb olaraq Nizami rayonunda tikinti aparan "Kursus-Nizami" şirkətinin yerli sakinlərlə mübahisəsi əsas götürülüb.

Qeyd olunur ki, şirkət müvəqqəti təminat tədbiri tələb edərək, binalara girişin qadağan olunmasını, sakinlərin köçürülməsini, evlərin sökülməsini istəyib. R.Əhmədov da 15 oktyabr 2024-cü il tarixli qərarı ilə bu ərizəni təmin edib, evlərin qəzalı vəziyyətdə olduğunu qeyd edib. Məhkəmədə sakinlər yekun qərar verilənədək söküntünün qadağan olunmasını tələb ediblər.

R.Əhmədovun söküntü ilə bağlı qərarından sonra ziddiyyətli durum yaranıb. Belə ki, məhkəmə bir qərarla söküntünü qadağan etsə də, digər qərarla icazə verib. Bu səbəbdən Bakı Apellyasiya Məhkəməsi R.Əhmədovun cəzalandırılmasına qərar verib.

Xatırladaq ki, Rauf Əhmədov Bakı Metropoliteninin sabiq rəisi, mərhum Tağı Əhmədovun böyük oğludur. Qeyd edək ki, Tağı Əhmədov uzun sürən xəstəlikdən sonra oktyabrın 18-də vəfat edib.

## Onlara da şəhid statusu verilə bilər: təklif müsbət qarşılanıb

***Azərbaycanda xidməti vəzifəsini icra edərkən həyatını itirən minatəmizləyənlərə şəhid statusu verilə bilər.***

"Unikal"ın məlumatına görə, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında komitə sədri Arzu Nağıyev təklifin müsbət qarşılandığını bildirib.

O qeyd edib ki, bu təklif "Minatəmizləmə fəaliyyəti haqqında" qanunun müzakirə mövzusu deyil.

"Digər tərəfdən, münatəmizləyənlərə bəzi güzəşt və imtiyazların verilməsi də təklif olunmuşdu. Bu güzəşt və imtiyazların onlara verilməsi üçün müvafiq qanunlara dəyişiklik edilməsi ilə bağlı aidiyyəti qurumlarla danışıqlar aparılıb", - Komitə sədri vurğulayıb.

Xatırladaq ki, oktyabrın 16-da Milli Məclisdə xidməti vəzifəsini icra edərkən həyatını itirən minatəmizləyənlərə şəhid statusunun verilməsi təklif edilib.

Bu təkliflə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin bu gün keçirilən iclasında Minatəmizləmə Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini Bəhruz Məmmədov çıxış edib.

O qeyd edib ki, bu işlə məşğul olanların statusu məsələsi vacibdir: "Minatəmizləmə əməliyyatı zamanı həyatını itirən şəxslərin şəhid statusu almasına baxılmasını xahiş edirik".

Bəhruz Məmmədov qeyd edib ki, ilk dəfə ANAMA əməkdaşı mina partlaması nəticəsində həyatını itirdi: "Bu hadisə Xankəndidə tələ minasının partlaması nəticəsində baş verdi. Ondan sonra bütün ANAMA əməkdaşları bizə müraciət etdi. O zaman biz bunu qanun layihəsinə sala bilmədik. Amma indi biz ANAMA olaraq, minatəmizləmə prosesi zamanı həyatını itirən əməkdaşlarımıza şəhid statusunun verilməsini təklif edirik".

# Emin Əmrullayevə 4 milyon manatlıq suallar

## Elm və Təhsil Nazirliyinin qrant ayırdığı bağçalar niyə müzakirə mövzusuna çevrilib?

***Bu günlərdə Elm və Təhsil Nazirliyi tərəfindən elan olunan "Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi"nin birinci mərhələsində ümumilikdə 26 bağça müsabiqənin qalibi olub.***

Qrant müsabiqəsində ümumilikdə 50-dən çox bağça iştirak edib və 26 bağça müsabiqənin birinci mərhələsində qalib elan edilib.

Bəs bu bağçalar harda fəaliyyət göstərir və rəhbərləri kimdir? Qaynarinfo-nun bu suala cavab axtarışı maraqlı məqamları ortaya çıxarıb. Məsələn, məlum olub ki, qrant ayrılan müəssisələrdən birinin - "İndigo" Körpələr Evi-Uşaq bağçasının rəhbəri Samirə Muxtar qızı Dünyamalıyevadır. Nazirliyin qrant müsabiqəsində həmin adla iki yer (Nizami rayonu, Şirin Mirzəyev küç 56A və Xətai rayonu və general Əliağa Şıxlinski küçəsi 55 ünvanları) qazanıb, direktorun adına olan digər bağça da müsabiqənin qalibi olub. S.Dünyamalıyeva həm də "Bağçam" şəbəkəsinin qurucusu və baş direktoru kimi də fəaliyyət göstərir. Üstəlik, Samirə Dünyamalıyevanın qanuni təmsilçisi olduğu "Körpə Ulduz" Uşaq Bağçası da müsabiqənin qalibi olub. Bağça Nizami rayonu, R.Rüstəmov küçəsi 44D ünvanında yerləşir.

"Unikal" olaraq bu yerdə ilginc bir məqama diqqət çəkmək istəyirik: sözügedən qrant müsabiqəsinin qalibləri açıqlandıqdan nə az, nə çox, düz 5 gün sonra məlum oldu ki, "İndigo"nun Nərimanov filialının lisenziyası olmadığı üçün Elm və Təhsil Nazirliyinin qrant ayırdığı bağçalar siyahısından çıxarılıb!

""İndigo" bağçasının Nərimanov filialı lisenziyası olmadığı üçün qrant alan bağçalar siyahısından çıxarılıb. Qrant müsahibələrində iştirak üçün bağçalar özləri müraciət edir. Əgər son anda bağçanın siyahıdan çıxarılmasına qərarı verilibsə, bu lisenziyanın ala bilməməsi ilə bağlı olub" - deyə iki gün öncə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) direktoru Eşqi Bağırov bildirmişdi.

Yuxarıda da yazdığımız kimi, "İndigo"nun məlum müsabiqə çərçivəsində seçilmiş bağçaların siyahısında 3 bağçası yer alıb. Lakin sonradan Nərimanov filalında yerləşən filaldan valideynlərə bildiriş mesajı göndərilərək qeyd edilib ki, bağça tərəfindən yerlər geri götürüldüyü üçün müraciət etmək mümkün olmayacaq.

Sual yaranır: "İndigo"nun haqqında danışılan filialının lisenziyasının olmadığı hansı məntiqlə qrant müsabiqəsi yekunlaşdıqdan və filial qalib elan edildikdən az qala bir həftə sonra ortaya çıxıb? Qalibləri müəyyənləşdirənlər bu məqama əvvəlcədən niyə, hansı səbəbdən göz yumublar? Bu, adi diqqətsizlikdir, yoxsa məsələnin arxasında fərqli səbəb, ya da səbəblər dayanır?!

Qayıdaq "Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi"nin birinci mərhələsində qalib elan edilən müəssisələrə... Onlardan başqa biri - "Barama" Körpələr Evi-Uşaq Bağçası 16.07.2024-cü il tarixində dövlət qeydiyyatından keçib. Nazirliyin qrant müsabiqəsində 4 yer qazanıb: Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti, 3166-cı məhəllə, ev 92a; Nizami rayonu, Bəkir Çobanzadə küçəsi 1; Şirvan şəhəri, Tofiq İsmayılov küçəsi, 4; Nəsimi rayonu, Hüseynbala Əliyev küçəsi 113A. Hər 4 bağçanın qanuni təmsilçisi Ocaqquliyeva Lalə Baloğlan qızıdır. Bağçalar "Landau School"un tərkibində fəaliyyət göstərir.



Digər tərəfdən qrant müsabiqəsində 50-dən çox bağça iştirak etdiyi halda 26 bağçanın hansı meyarlarla seçilməsi də sual altındadır. Bununla belə, bir adamın adına olan bir neçə bağçanın müsabiqənin qalibi elan edilməsi də sual doğurur.

Başqa bir məsələ isə aylıq ödənişlərlə bağlıdır. Məsələn, Masazır kəndi, V.Quliyev küçəsi, "Yeni Bakı" yaşayış kompleksində fəaliyyət göstərən "Zəfər" liseyi Təhsil Kompleksində Azərbaycan dili üzrə aylıq ödəniş 300 manat olduğu halda, nazirlik siyahıda 350 manat (250 manat nazirlik, 100 manat valideyn) göstərib. Digər adları çəkilən əksər bağçalarda da rus və Azərbaycan dili üzrə aylıq ödənişlər eynidir. Bu məqamın özü də yetərincə suallar doğurur və hər uşağa görə 50 manatlıq fərqin ağlabatan izahata ehtiyac var. Əks halda yenə də ortaya şübhələr, suallar çıxacaq...

Xatırladaq ki, hələ bu ilin yayında sözügedən qrant müsabiqəsinin məqsədi 2024-2025-ci tədris ilində dövlət məktəbəqədər təhsil müəssisələrinə qəbul oluna bilməyən uşaqları özəl məktəbəqədər təhsil müəssisələrində boş qalan yerlərə cəlb etmək və təhsil haqqının bir hissəsini qrant vasitəsilə maliyyələşdirmək olaraq açıqlanmışdı. Mövzu ilə bağlı danışan təhsil üzrə ekspert Ramal Şəmşədli bildirmişdi ki, dövlətin özəl məktəbəqədər təhsil müəssisələrini dəstəkləməsi və himayəyə götürməsinin effektli ola bilməsi üçün ilk növbədə qrantların ədalətli və şəffaf şəkildə paylanması təmin edilməlidir. "Digər tərəfdən qrant alan müəssisələrin fəaliyyətinin mütəmadi monitorinqi və keyfiyyət standartlarına riayət edilməsinin təmin olunması da vacibdir. Burada həmçinin, valideyn və müəllimlərin dəstəyi, onların rəy və təkliflərinin nəzərə alınması da mühüm amildir" deyə o, əlavə etmişdi.

İstər mediada, istərsə də sosial şəbəkələrdə Emin Əmrullayevin rəhbərlik etdiyi Elm və Təhsil Nazirliyinin ilk mərhələdə qalib elan etdiyi uşaq bağçaları ilə bağlı ortaya atılan tənqidi fikirlər qrantların ədalətli və şəffaf şəkildə paylandığını şübhə altına alıb. Nazirlik hələlik səsləndirilən tənqidlərə reaksiya verməyib.Bunun özü də sual yaradır...

***Toğrul Əliyev***

38_27 IYUI-QARA.qxd 10/31/2024 9:50 PM Page 4



# Dövlət rəsmiləri COP29-la bağlı toplandı: PA rəhbəri tapşırıqlar verdi




***Oktyabrın 31-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası olub.***

”Unikal” xəbər verir ki, Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev artıq COP29-a sayılı günlərin qaldığını qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan ötən dövr ərzində COP29-a ciddi hazırlıq prosesinin daha da sürətləndirildiyini və yekunlaşmaqda olduğunu vurğulayıb. Samir Nuriyev Prezident İlham Əliyevin oktyabrın 17-də Bakı Olimpiya Stadionunda aparılan genişmiqyaslı hazırlıq işləri ilə növbəti dəfə tanış olaraq tapşırıq və göstərişlər verdiyini nəzərə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycana və Prezident İlham Əliyevə hörmətin bariz nümunəsi olaraq COP29 Liderlər Sammitində 100-dən artıq dövlət və hökumət başçısının, vitse-prezidentlərin iştirakının gözlənildiyini bildirib.

Samir Nuriyev əlavə edib ki, COP29-da iştirak üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi vasitəsilə 50 mindən artıq şəxs qeydiyyatdan keçib və bu proses davam etdiyi üçün say daha da artacaq.

Təşkilat Komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev oktyabrın 10-11-də Bakıda keçirilmiş Pre-COP29 tədbirinə ünvanladığı müraciətində COP29-da yeni iqlim maliyyəsi hədəfi ilə bağlı razılaşmaya nail olunmasının vacibliyini vurğulayaraq, “Bakı Sazişi”nin əldə edilməsinin beynəlxalq ictimaiyyətin ümumi nailiyyəti kimi tarixə düşəcəyinə inamını ifadə edib. Bu xüsusda, Samir Nuriyev deyib ki, Azərbaycan tərəfinin xarici tərəfdaşlarla təmasları zamanı COP29-da uğurlu nəticələrin əldə edilməsi imkanlarının daha da artdığı aydın hiss olunur.

Prezident Administrasiyasının rəhbəri COP29 zamanı Bakıda nəqliyyatın planlı şəkildə təşkil olunması ilə bağlı hazırlanmış Nəqliyyat Planının icrasının təmin edilməsinin vacibliyini vurğulayıb.

Samir Nuriyev, eyni zamanda, Bakı Olimpiya Stadionunda yekunlaşmaqda olan hazırlıq işləri, dövlət qurumları tərəfindən beynəlxalq tərəfdaşlarla birlikdə təşkil ediləcək tədbirlər və digər məsələlər barədə danışıb.

Təşkilat Komitəsinin sədri xarici medianın və qeyri-hökumət təşkilatlarının da COP29-a iştiraka böyük maraq göstərdiyini bildirib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun illik sessiyası və hazırda Kolumbiyada işini davam etdirən BMT-nin “Bioloji Müxtəliflik haqqında” Konvensiyasına Tərəflərin Konfransı da daxil olmaqla, COP29-la bağlı ümumi gedişat barədə danışıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev media-kommunikasiya sahəsində həyata keçirilən fəaliyyət və vətəndaş cəmiyyətinin COP29-a töhfəsi ilə bağlı çıxış edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Bakı Olimpiya Stadionunda görülən işlər, paytaxtda keçirilən nəqliyyat monitorinqləri və digər təşkilati-logistika məsələləri barədə danışıb.

Xarici işlər naziri Ceyhun Bayramov COP29 zamanı qəbul edilməsi nəzərdə tutulan mühüm sənədlər, xüsusilə yeni iqlim maliyyəsi hədəfi ətrafında son vəziyyət barədə çıxış edib.

Energetika naziri Pərviz Şahbazov Azərbaycanda yaşıl enerji sahəsində həyata keçirilən işlər, Energetika Nazirliyinin xətti ilə COP29 zamanı təşkil edilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb.

Milli Məclisin deputatı, COP29-un İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai Bakı İqlim Həftəsi və keçirilən digər tədbirlərlə bağlı məlumat verib.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov COP29-un təşkili prosesində miqrasiya idarəçiliyi barədə danışıb.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev COP29 zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan işlər barədə məlumat verib.

COP29-un Gənc iqlim çempionu Leyla Həsənova gənclərin iqlim fəaliyyətində iştirakı sahəsində görülən işlər barədə danışıb.

İclasda Bakı Olimpiya Stadionunda hazırlıq işlərinin son vəziyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın COP29-da Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti tarixi uğuruna imza atacağına əminliyini ifadə edib, COP29 Tədbirlər Planının icrasının davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.




# Ceyhun Bayramov britaniyalı nazirlə sülhdən danışdı

## XİN rəhbəri: “Ermənistanla sülh sazişi danışıqlarında ciddi proqres var, layihənin razılaşdırılması üzrə iş aparılır”

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyanın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə telefon danışığında onu Ermənistanla sülh prosesi barədə məlumatlandırıb.***

“Unikal” xəbər verir ki, bu barədə Azərbaycan XİN məlumat yayıb. Telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyi, habelə mövcud regional vəziyyət və Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub.

Qeyd edilib ki, tərəflər Azərbaycanla Birləşmiş Krallıq arasında xüsusilə energetika, təhsil, qarşılıqlı investisiyalar və digər sahələrdə əməkdaşlıqdan məmnunluq ifadə edərək, iki ölkə arasında son vaxtlar siyasi dialoqun intensivləşməsinin, qarşılıqlı səfərlərin, eləcə də hökumətlərarası əməkdaşlıq komissiyalarının işinin bərpasının yeni sahələr üzrə əməkdaşlığın inkişafına təkan verəcəyi bildiriliblər.

Nazir Ceyhun Bayramov müqabil tərəfi Azərbaycanın bölgədə dayanıqlı sülhün təsis edilməsi üzrə baxışları, bu istiqamətdə atılan praktiki addımlar, habelə Ermənistanla sülh prosesi barədə ətraflı məlumatlandırıb. Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində ciddi proqresin olduğu, ümumilikdə layihənin razılaşdırılması üzrə iş aparıldığı, eyni zamanda Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarının prosesdə əsas maneə təşkil etdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı, iki ölkə arasında alternativ enerji sahəsində əməkdaşlığın müxtəlif istiqamətləri, SOCAR və BP arasında günəş enerjisinin istehsalı üzrə aparılan işlər, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) hazırlıq məsələləri müzakirə olunub.

Telefon danışığı çərçivəsində həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyə XİN Avropa Komissiyasının hesabatındakı ədalətsiz qiymətləndirmələri rədd edib

***Türkiyə Avropa Komissiyasının hazırladığı hesabatındakı ədalətsiz qiymətləndirmələri rədd edir.***

Bu barədə Türkiyə XİN-nin bəyanatında deyilir. Qeyd olunub ki, Türkiyə hesabata makroiqtisadi siyasətlərdə əldə edilən irəliləyişlərə istinad edilməsi və Türkiyədə mövcud olan bazar iqtisadiyyatına uyğunlaşma səviyyəsinin vurğulanması isə diqqətəlayiqdir.

Bundan əlavə, hesabatda Türkiyənin Şərqi Aralıq dənizində konstruktiv rol oynadığı, Yunanıstanla münasibətləri yaxşılaşdırdığı və Aİ ilə ticari məsələlərdə əməkdaşlığı inkişaf etdirdiyi vurğulanır.

“Digər tərəfdən, Hesabat Yunanıstanın və Rum tərəfinin (Kipr Respublikası - red.) reallıqla bir araya sığmayan qeyri-qanuni və maksimalist fikirlərini əks etdirir, Türkiyə və Şimali Kipr Türk Respublikasının haqlı narahatlıqlarını və haqlı siyasətlərini tamamilə görməzlikdən gəlir. Qeyd etmək istərdik ki, Kipr probleminin həlli formatına yalnız adadakı iki tərəf, üç qarant dövlət və Birləşmiş Millətlər Təşkilatı daxildir. İstənilən gələcək həll adada hər iki tərəfin razılığı ilə əldə edilməlidir”, - deyə bəyanatda vurğulanıb.

# Azərbaycandan Fransanın Ermənistandakı səfirinə cavab

***Elementar diplomatik etiket qaydalarına əməl etməyi bacarmayan Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistan-Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsi ilk növbədə Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir.***



”Unikal” xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistanın “Hetq” media qurumuna müsahibəsində Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddialar barədə yerli medianın sualına cavabında bildirib.

”Müsahibədə Azərbaycan ərazisində işğala və separatçılığa son qoyan tədbirlərin hədəf alınması, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına yanlış istinadlar, Ermənistanın “yarımçıq sülh” fikirlərini dəstəkləyən açıqlamalar və bir sıra digər absurd yanaşmalar ilk növbədə Fransa tərəfinin reallıqları necə təhrif etdiyini, bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirir.

Fransanın bölgədə eskalasiyanı davam etdirməyə yönələn davranışları və təxribatları bu ölkənin həm münaqişə, həm də postmünaqişə dövründə güddüyü niyyətin və apardığı siyasətin əsl mahiyyətini sübut edib”, - deyə XİN rəsmisi qeyd edib.

38_27 IYUI-QARA.qxd 10/31/2024 9:50 PM Page 5



# İlham Əliyev onları təltif etdi - Sərəncam



***Azərbaycanda kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxs təltif edilib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.Sərəncamla kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilib:

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Dünyamalıyev Mətləb Məmməd oğlu
Əmirbəyova Jalə Əhməd qızı
Fətullayev İslam Babakişi oğlu
Hüseynov Namiq Tapdıq oğlu
Mahmudov Abdullah İlyas oğlu
Məmmədov Sahib Nizaməddin oğlu
Nəbiyev Feyzulla Sovetxan oğlu
Şəmmədov Elşad Zeynal oğlu

**“Tərəqqi” medalı ilə**

Abbasov İbrahim Yusif oğlu
Ağayev Lətif Xudaş oğlu
Bayramova Gülyanə Fərrux qızı
Dünyamalıyev Sevindik Əbil oğlu
Əhmədov Ağa Balaseyid oğlu
Əsgərov Məhərrəm Əsgər oğlu
Əsgərov Səməddin Calal oğlu
Əzizov Əlisultan Əlheydər oğlu
Fətəliyev Məhəmməd Qoca oğlu
Hacıyev Etiram Qabil oğlu
Hacıyev Mahir Həmzə oğlu
Həsənov Arif Bahadur oğlu
Hüseyinov Həsənağa Allahverdi oğlu
Xəlilov Həmzə Ağakişi oğlu
İsmayılova Səadət Əmir qızı
Qəhrəmanov Canpolad Kamayıl oğlu
Quliyeva Yeganə Arif qızı
Qurbanov Abdulqafur Abdulrəhman oğlu
Məmmədov Anar Vidadi oğlu
Məmmədov Habil Axunbala oğlu
Məmmədov Hafiz İsa oğlu
Məmmədov Nəvai Şahin oğlu
Məmmədova Mətanət Zaman qızı
Səlimov Vüqar Süleyman oğlu
Tağıyev Yaqub İslam oğlu
Talıbov İzzət Ataxan oğlu
Yusifov Mehdi Mehman oğlu
Yusifova Elza Sədi qızı
Zahirov Beydullah İslam oğlu.

# Mərkəzi Bankın İdarə Heyətinə yeni üzvlər təyin edilməcək

***Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin tərkibi yenidən müəyyən olunacaq.***

”Unikal” xəbər verir ki, bu barədə məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sabah keçiriləcək iclasının gündəliyinə daxil edilib.




Belə ki, iclasda Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi haqqında məsələ müzakirə ediləcək.

Qeyd edək ki, hazırda Mərkəzi Bankı İdarə Heyətinin tərkibi üç nəfərdən ibarədir. Taleh Kazımov Azərbaycan Respublikası Mərkəzi Bankının sədri, Rəşad Orucov sədrin birinci müavini, Əliyar Məmmədyarov isə sədrin müavinidir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5^
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Mehriban Əliyeva körpələr evinin açılışında

***Oktyabrın 31-də Bakının Xətai rayonundakı Alim Məmmədov adına uşaq bağçası-körpələr evi təmirdən sonra yenidən istifadəyə verilib.***

”Unikal” xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri bağçada yaradılmış şəraitlə tanış olublar.

Uşaq bağçasının direktoru Liya Məcidova Birinci vitse-prezidentə və ailə üzvlərinə bağçada görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1958-ci ildə inşa olunan Alim Məmmədov adına uşaq bağçası-körpələr evi ötən müddətdə istismara yararsız vəziyyətə düşdüyünə görə təmirə ehtiyac yaranmışdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, uşaq bağçası-körpələr evi müasir tələblər səviyyəsində təmir olunub.

Yüz yerlik uşaq bağçası-körpələr evi zəruri avadanlıq və ləvazimatlarla təmin olunub. Bu məktəbəqədər müəssisədə uşaqlar 5 qrup üzrə təhsil alırlar.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb, uşaqlar üçün oyun meydançası yaradılıb.

Qeyd edək ki, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyüməsinə xüsusi qayğı göstərilir. Uşaq bağçalarının yenidən qurulması ilə bağlı həyata keçirilən layihələr bu baxımdan mühüm rol oynayır.



Uşaqların təlim-tərbiyəsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun həyata keçirdiyi layihələr məktəbəqədər təlim-tərbiyə müəssisələrinin inkişafına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə səbəb olub. Gələcəyimiz olan uşaqların sosial rifahının yaxşılaşdırılmasına hesablanan belə tədbirlər ölkəmizdə aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.

# Spiker Pakistan səfiri ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 31-də Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasim Mohiuddinlə görüşüb.**

Bu barədə ”Unikal”a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, qonağı səmimi salamlayan parlamentin spikeri, dövlətlərarası münasibətlərin dinamik inkişafından məmnunluğunu ifadə edib, Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrindən danışıb. Sahibə Qafarova bildirib ki, bu gün ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlığın səviyyəsi əlaqələrimizin inkişafına geniş imkanlar yaradır.

Milli Məclisin sədri Pakistana və onun parlamentinə həm Azərbaycan torpaqlarının 30 illik işğalı dövründə, həm də Azərbaycanın ərazi bütövlüyünün təmin olunması zamanı ölkəmizə beynəlxalq arenada verdiyi daimi dəstəyə görə təşəkkürünü bildirib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolu yüksək qiymətləndirilib, parlament rəhbərlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin, müntəzəm təmaslarının, eləcə də deputatlarımızın beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlığının əhəmiyyəti vurğulanıb.

Görüşdə yaxın günlərdə Azərbaycanda baş tutacaq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası -



COP29-a hazırlıq işləri barədə danışılıb. Spiker Sahibə Qafarova COP-29 ətrafında gedən çirkin siyasi oyunları qəbuledilməz adlandırıb, bu tədbirin ümumbəşəri əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Qasim Mohiuddin Pakistan Milli Assambleyası sədrinin salamlarını və xoş arzularını spiker Sahibə Qafarovaya çatdırıb. Ölkəmizin iqlim dəyişiklikləri kimi qlobal problemlərin həlli istiqamətindəki səylərini yüksək qiymətləndirən səfir, COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

# Dövlət Komitəsində kollegiya iclası keçirildi

***Oktyabrın 31-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində növbəti kollegiya iclası keçirilib.***

”Unikal” xəbər verir ki, kollegiya iclasında Böyük Qayıdışa dair I Dövlət Proqramının prioritet istiqamətləri üzrə tədbirlərin, işğaldan azad edilmiş ərazilərdə yenidən salınan və bərpa olunan yaşayış məntəqələrinə köçürülmənin təşkili və həyata keçirilməsi, məcburi köçkünlərə göstərilən kommunal xidmətlərin vəziyyəti, vahid aylıq müavinətin verilməsi, qayıdışın tənzimlənməsi üzrə hüquqi bazanın yaradılması, statusla bağlı sənədləşmə işlərinin təkmilləşdirilməsi, Mənzil İstismar Departamentinin balansında olan qəsəbələrdə payız-qış mövsümünə hazırlığın gedişi və digər məsələlər müzakirəyə çıxarılıb.



Müvafiq struktur bölmələrinin rəhbərlərinin məruzələri dinlənilib, iradlar, rəy və təkliflər səsləndirilib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərinin dirçəldilməsi, bu məqsədlə bərpa-quruculuq işlərinin aparılması, məcburi köçkünlərin doğma yurda qayıdışının təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri, Böyük Qayıdışla bağlı tədbirlərin icrasının daim nəzarətdə saxlanılması öz ata-baba yurduna qayıtmağa hazırlaşan məcburi köçkünlərdə dərin razılıq və minnətdarlıq hissi doğurur. Dövlət Komitəsinin sədri Rövşən Rzayev ölkə rəhbərinin tapşırıqlarının və qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün daha böyük məsuliyyətlə çalışmağın vacibliyini vurğulayaraq bildirib ki, məcburi köçkünlərin doğma yurdlarına könüllü, təhlükəsiz və ləyaqətlə qayıdışının təşkili üzrə müəyyənləşdirilən kompleks tədbirlərin ardıcıllıqla və vaxtında icra edilməsi təmin olunmalıdır. Kollegiyada müzakirə olunan məsələlər üzrə müvafiq qərarlar qəbul olunub və tapşırıqlar verilib.

38_27 IYUl-QARA.qxd 10/31/2024 9:50 PM Page 6



# Prezident yeni nəsil metro qatarları ilə tanış oldu

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub.***



"Unikal" xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına qatarlar barədə məlumat veriblər.

Bildirilib ki, "Qlobalnıye Transportnıye Reşeniya" MMC ilə "Bakı Metropoliteni" QSC arasında bağlanmış müqaviləyə əsasən, 2024-2026-cı illər ərzində 65 yeni vaqonun (13 qatar tərkibi) istehsal edilərək Bakı metropoliteninə gətirilməsi nəzərdə tutulub. Həmin müqaviləyə uyğun olaraq, 2024-cü ildə 35 (7 qatar tərkibi), 2025-ci ildə 20 (4 qatar tərkibi), 2026-cı ildə isə 10 vaqon (2 qatar tərkibi) istehsal edilməlidir.

Diqqətə çatdırılıb ki, "81-765 B/766 B" seriyalı qatar tərkibi innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Vaqonlar "Bakı Metropoliteni" QSC-nin texniki şərtlərinə uyğun istehsal olunub və yığılaraq komplektləşdirilməsi Bakı metropolitenində təşkil edilir. Vaqonların yığılması prosesi digər metropolitenlər üçün nəzərdə tutulmuş standart layihə əsasında deyil, Avropanın ən yüksək texnoloji tələblərə cavab verən aparıcı istehsalçılarının avadanlıq və sistemləri ilə aparılır. Bakı metropoliteninin mürəkkəb relyefi, texniki xüsusiyyətləri, paytaxtın iqlimi, geoloji şəraiti nəzərə alınmaqla avadanlıqların istismar müddətində yüksək təhlükəsizlik tələblərinə cavab verməsinə, etibarlılığına, uzunömürlülüyünə, istehsal zəmanətinə, səmərəliliyinə və digər üstünlüklərinə diqqət yetirilib. Bu xüsusda, Avropa istehsalçıları ilə 9 müqavilə imzalanaraq avadanlıqların birbaşa Bakıya gətirilməsi təmin edilib. Nəticədə, vaqonların yüksək keyfiyyət standartları təmin edilməklə yığılmasının Bakıda tamamlanaraq xəttə buraxılması nəzərdə tutulub.

Vaqonların Bakıda yığılaraq komplektləşdirilməsi, sazlama, həmçinin sınaq işlərinin aparılması məqsədilə Bakı metropoliteninə istehsalçı şirkətin 54 nəfərdən ibarət heyəti ezam edilib. Yeni nəsil qatarların hər birinin baş vaqonları 315, orta vaqonları 329 sərnişin üçün hesablanıb. Baş vaqonlarda 38, orta vaqonlarda 44 oturacaq var. Vaqonların qapıları 1400 mm olmaqla əvvəlki nəsil vaqonlarla müqayisədə 12 faiz daha genişdir. Qatarlarda əlil arabaları, iri yüklər və uşaq arabaları üçün çoxfunksiyalı zonalar, mikroiqlim nəzarəti, videomüşahidə, interaktiv sərnişin məlumatlandırma sistemləri, mobil cihazlar üçün USB portlar, orijinal işıq qrafikası mövcuddur. Vaqonlar hermetik olduğuna görə səs-küysüzdür və istilik izolyasiyasına malikdir. əvvəlki nəsil qatarlarla müqayisədə vaqondan-vaqona birbaşa keçidlər sərnişinlərin qatar boyunca hərəkətini təmin edir. Bakıya gətirilmiş 7 qatardan 5-nin yığılaraq komplektləşdirilməsi, sazlanması və sınaq işləri başa çatdırılıb. Daha 2 qatarın xəttə buraxılması noyabrın 8-nə qədər təmin ediləcək.

Dövlətimizin başçısı Bakıda komplektləşdirilən qatarların vaqonlarına baxdı.

Qeyd edilib ki, yeni qatarlar nəzərə alınmaqla, Bakı metropoliteninin vaqon parkında innovasiyalar baxımından sonuncu nəslə mənsub vaqonların ümumi sayı 150-yə çatdırılıb.

# COP29 Yaşıl Zona üzrə biletlərin verilmə tarixi açıqlandı

***Bu ilin 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək COP29 konfransı çərçivəsində təşkil olunacaq Yaşıl Zonaya giriş biletlərinin əldə edilməsi prosesi 9 noyabr tarixindən etibarən başlanılacaq.***




Bu barədə "Unikal" COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib. Bildirilib ki, geniş ictimaiyyət üçün açıq olacaq COP29 Yaşıl Zona üzə biletləri ödənişsiz olaraq onlayn qaydada əldə etmək mümkün olacaq.

Məlum olduğu kimi, COP29 konfransının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) tərəfindən idarə edilən və rəsmi danışıqların mərkəzi olan Mavi Zona ilə yanaşı həmçinin COP29 Sədrliyi tərəfindən təşkil və idarə edilən və icmaların iştirakı, texnoloji həllər və qlobal əməkdaşlığa yönəlik Yaşıl Zona da fəaliyyət göstərəcək. Yaşıl Zona iqlim məsələləri ilə bağlı müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor təmsilçiləri, media, elm adamları, ekspertlər, yerli icmalar, vətəndaş cəmiyyəti institutları və rəsmi Mavi Zona nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələcəyi məkandır.

Qeyd edilib ki, Yaşıl Zona proqramı müxtəlif sahələrdə dayanıqlılıq və iqlim fəaliyyəti ilə bağlı bir sıra təşəbbüs və müzakirələri əhatə edir, iqlim dəyişmələri üzrə həllərin təşviqi sahəsində gənclərin, eləcə də qadın və yerli icmaların daha geniş iştirakını ehtiva edir. Bundan əlavə, Yaşıl Zona dayanıqlı inkişaf naminə QHT-lər, eləcə də şirkət və ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsini də təşviq edir.

İqlim fəaliyyəti ilə yaxından tanış olmaq istəyən kəs üçün açıq olan Yaşıl Zonaya biletlərini ödənişsiz şəkildə iTicket platforması vasitəsilə elektron formada əldə etmək mümkün olacaq. Konfransın dayanıqlılıq prinsipləri nəzərə alınaraq, elektron biletlərin çap edilməsi və kağız daşıyıcıda təqdim olunması tələb edilmir.

Qeyd edək ki, COP29 Yaşıl Zonaya böyük maraq nəzərə alınaraq sözügedən biletlər konfransın keçiriləcəyi müddət ərzində hər ayrıca gün və bu günlərin müxtəlif saat slotları üzrə ayrıca əldə edilməlidir. Biletlər hər növbəti gün üçün iki gün öncədən reliz ediləcək. Yaşıl Zona biletləri haqqında daha ətraflı məlumatı COP29 rəsmi veb saytının müvafiq bölməsindən əldə edə, aidiyyəti suallarınızı isə ticketing@cop29.az elektron poçt ünvanına yönləndirə bilərsiniz.



# Zakir Həsənov "Mərakeş Aviaşou 2024" sərgisinin açılışında

***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Mərakeşə işgüzar səfəri davam edir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Mərakeş Krallığının Hökumət Başçısı yanında Milli Müdafiə Administrasiyası üzrə səlahiyyətli naziri Abdellatif Ludiyinin dəvəti ilə bu ölkədə işgüzar səfərdə olan general-polkovnik Zakir Həsənov "Mərakeş Aviaşou 2024" sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

Müxtəlif dövlət rəsmiləri və beynəlxalq şirkətlərin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Mərakeş Krallığının hökumət başçısı və digər rəsmilər çıxış ediblər.

Çıxışlardan sonra "Mərakeş Aviaşou 2024" sərgisi ziyarət olunub.

General-polkovnik Z.Həsənov dünyanın aparıcı beynəlxalq şirkətlərinin təmsil olunduğu sərgidə təqdim edilən hərbi aviasiya, qlobal aeronavtika və kosmik sənaye innovasiyaları ilə tanış olub.

Noyabrın 2-dək davam edəcək sərgi çərçivəsində müdafiə sənayesindəki texnoloji yeniliklər, davamlı strategiyanın inkişaf etdirilməsi, pilotsuz uçuş aparatlarının təkmilləşdirilməsi və digər mövzularda panel müzakirələri aparılacaq.

# "Sertifikasiya imtahanı bu tarixdə keçiriləcək" - DİM sədri açıqladı

***Azərbaycan dili üzrə sertifikasiya imtahanı (ADSİ) BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) başa çatdıqdan sonra keçiriləcək.***

"Unikal" xəbər verir ki, bunu AzərTac-a açıqlamasında Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə deyib.

O bildirib ki, ADSİ üzrə əvvəlcə sınaq imtahanı keçiriləcək. Məleykə Abbaszadə imtahan tarixinin yaxın zamanda ictimaiyyətə açıqlanacağını qeyd edib.

Xatırladaq ki, imtahan iştirakçılarının Azərbaycan dili üzrə biliklərinin qiymətləndirməsi A1, A2 başlanğıc, B1, B2 orta, C1, C2 yuxarı səviyyələrində aparılacaq.

# Hikmət Həsənovun köməkçisi ağır cəzalandırıldı

***"Tərtər işi" üzrə mühakimə olunan sonuncu dəstənin məhkəmə araşdırması başa çatıb.***



"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Bakı Hərbi Məhkəməsində keçirilən bugünkü iclasda hökm oxunub.

Sədrlik edən hakim Zeynal Ağayev elan edib ki, təqsirləndirilən şəxslərə verilmiş ittihamlar məhkəmə istintaqı ilə təsdiqini tapıb.

Hökmə əsasən, Fuad Ağayev 13 il, Fuad Axundov və Ramil Əhmədov 9 il 6 ay, Cavid Ağadadaşov və Qurban Cümşüdov isə 4 il müddətinə azadlıq məhrum edilib. Son ikisi istisna olmaqla, digərləri bu işdən əvvəl həbsdə idilər. Bu hökmdə həmin cəzalar birləşdirilib.

Qeyd edək ki, "Tərtər işi" üzrə istintaq 2021-ci ildə yenilənib. Həmin vaxtdan sonra ən ağır cəza Fuad Ağayevə verilib. Mayor rütbəsi ilə xidmət etmiş Ağayev cinayət baş verən dövrdə sabiq korpus komandiri general-mayor Hikmət Həsənovun hüquq məsələləri üzrə köməkçisi işləyib.

Amma o, da digər müttəhimlər kimi özünü təqsirli bilməyib, bəraət istəyib.

# AHİK sədri onu özünə müşavir təyin etdi

***Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyasında (AHİK) yeni təyinat olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı AHİK sədri Sahib Məmmədov əmr imzalayıb. Əmrə əsasən, Orxan Ərəbov AHİK sədrinin müşaviri vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, O.Ərəbov Gənclər Fondunun İcraçı direktorunun müavini olub. O, 2023-cü ildə Prezident İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilib.

***Murad İbrahimli***

# Əhməd İsmayılova "Qarabağ"ın forması təqdim olundu

***Medianın İnkişafı Agentliyinin rəhbərliyi "Qarabağ" klubunun qonağı olub.***

"Unikal" xəbər verir ki, görüşdə agentliyin İcraçı direktoru Əhməd İsmayılov, Ağdam təmsilçisinin baş direktoru Əmrah Çəlikəl, İdarə Heyətinin üzvü Asif Əsgərov, baş məşqçi Qurban Qurbanov və mətbuat xidmətinin rəhbəri Anar Hacıyev iştirak ediblər.

Görüş zamanı "Qarabağ"ın kommunikasiya üzrə fəaliyyətinin effektivliyinin artırılması müzakirə olunub, bu sahədə Medianın İnkişafı Agentliyi ilə qarşılıqlı əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

Sonda Ə.İsmayılova komandanın forması təqdim olunub.

# Dövlət satınalmalarına dair 1 514 protokol ləğv edilib

***Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda satınalan təşkilatlardan İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə daxil olmuş 9 831 yekun protokol təhlil edilib.***

"Unikal" bu barədə Dövlət Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, qanunvericiliyin tələblərinin pozulması halları aşkar olunmuş 1 514 yekun protokol ləğv edilib.

# Aeroport gücləndirilmiş rejimdə işləyəcək

***Bakı hava limanı gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.***

Bunu Heydər Əliyev Beynəxalq Aeroportunun direktoru Teymur Həsənov media-tur çərçivəsində keçirilən brifinqdə deyib. Onun sözlərinə görə, əlavə işçilər və könüllülər işə cəlb edilib, bütün proseslərin tənzimlənməsi üçün işçi qrup yaradılıb.

"Hazırda gündəlik sərnişin dövriyyəsi 18-20 min arasıdır. COP29 zamanı bu rəqəmin 25-27 minə çatacağı gözlənilir. Hava limanı gücləndirilmiş rejimdə gündə 45-50 min sərnişinə xidmət göstərə bilər", - deyə T.Həsənov bildirib.

Hava limanı direktoru onu da əlavə edib ki, COP29 çərçivəsində "Lufthansa", "Polish Airlines", "FlyDubai", "Flynas" şirkətləri ilə əlavə 15 çarter reysi planlaşdırılır.

"Uçuş-enmə zolağı əsaslı təmirdən sonra istifadəyə verilib. Sürmə yolları təmir olunub və 3 yenisi inşa edilib. Sərnişin ötürmə qabiliyyətinin artırılması məqsədilə təhlükəsizlik baxış məntəqələrinin sayı artırılıb. Terminallarda 12 ədəd "self-check-in" və 10 ədəd "baggage drop-off" quraşdırılıb. Hava limanında internet avadanlıqları yenilənib, daha sürətli və dayanıqlı internetlə təmin edilib", - deyə o qeyd edib.

# "Hökumət keyfiyyətin yoxlanmasının başqa yollarını tapmalıdır"

## Xalid Kərimli: "Lazım gələrsə, cəzalarını daha artıq edərək bir neçə il həbsxanada saxlamaqla cəmiyyətə göstərmək də olar"

***İqtisadçı-ekspert Xalid Kərimli "Unikal"a müsahibə verib. O, alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyənləşməsindən, bu addımın saxta içkilərin qarşısını necə alacağından və qiymətin artmasının alkoqollu içkilərdən istifadə edənlərin sayına necə təsir edəcəyindən danışıb.***



***- "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna təklif olunan dəyişikliklə alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müəyyənləşir. Bu dəyişikliyi necə qiymətləndirirsiz?***

-Ümumiyyətlə, bununla keyfiyyət məsələsinin tənzimlənəcəyini fikirləşmək yanlışdır. Alkoqollu içkilərin tərkibinin insan sağlamlığına ziyan vurmayacaq şəkildə olması və müəyyənləşdirilmiş standartda təqdim edilməsi ilk növbədə sahibkarın borcudur. Həmçinin, bunun üzərində nəzarəti həyata keçirən qurumun borcudur ki, istehlak bazarında bu cür nəzarətləri təşkil etsin. Bu nəzarət məsələsi digər məhsullara da aiddir. Burada qiymətlə keyfiyyətə nəzarət edəcəyik məsələsi deyilir. Düşünürəm ki, keyfiyyətə nəzarətin daha effektiv, düzgün formaları var və o cür edilməlidir. Fikirləşirlər ki, bu da bir nümunədir. Dünyada belə qanunlar var. Qiymətə bu cür müdaxiləyə, inzibati tədbirlərə sonda baxılmalıdır. Arağı mağazada satırlar. Ora gəlib soruşa bilərlər ki, bunu haradan alır? Əgər sexdən alırsa, onu rahat şəkildə müəyyənləşdirə, daha sonra onlar cəzalandırıla bilər. Eyni zamanda, lazım gələrsə, cəzalarını daha artıq edərək bir neçə il həbsxanada saxlamaqla cəmiyyətə göstərmək də olar. Minimum qiymət daha çox araq istehsalçılarının mənafeyini qorumaqdır ki, onlar qiymət rəqabəti apara bilmirlər. Çox rahat şəkildə arağın litrinə görə aksiz vergisini artıra bilərlər. Minimum qiymətin bu formada qoyulmasını indiki məqamda doğru hesab etmirəm. Keyfiyyətsiz məhsulun qarşısını almaq üçün dövlətin aidiyyəti qurumları var. Bununla bağlı 3-4 ölkənin təcrübəsini eşitmişəm. Hesab olunur ki, alkoqol səhhətə ziyandır və qiyməti artırmaqla hətta keyfiyyətli spirtli içkinin də istehlakını aşağı salsınlar. Onlar bu baxımdan yanaşır. Alkoqolun tərkibinin pis olması başqa məsələdir. Belə ki, keyfiyyətsiz arağı insanları aldatmaqla baha qiymətə də sata bilərlər. Bu o demək deyil ki, qiymət baha olanda keyfiyyət yaxşı olacaq.

***-Bu addım saxta içkilərin qarşısının alınmasına kömək edəcək, ya belə içkilər daha da arta bilər?***

-Bu qərarla ümid var ki, keyfiyyətsiz alkoqollu içkilərin bazara girişi məhdudlaşacaq və əhaliyə də çağırış olacaq ki, müəyyənləşdirilən qiymətdən ucuz ola bilməz. Əgər bu qiymətdən ucuzdursa, bilin ki, həmin məhsul keyfiyyətsizdir. Qiymətin müəyyən hissəsi aksiz vergisidir. Aksiz vergisini verməmək də qanunsuzluqdur. Hökumət aksiz vergisindən yayınmanın, keyfiyyətin yoxlanmasının başqa yollarını tapmalıdır. Bu cür qiymət qoyulması bazarda rəqabəti pisləşdirir. Ola bilsin ki, keyfiyyətsiz araq daha yüksək qiymətə satılacaq. Digər təsir elementi odur ki, araq istehsal və idxalçıları öz məhsullarını rahat satacaqlar.

***-Bundan əvvəl tütün məmulatları ilə bağlı görülən tədbirlər də siqaretin qiymətinin artmasına gətirib çıxardı. Sizcə, bu addımlar insanların alkoqoldan istifadəsinin azalmasına səbəb olacaq?***

-Qiyməti bazar tənzimləyir. Hökumət keyfiyyət standartları və vergiqoyma ilə məşğul olamlıdır. Qiymətin baha olması keyfiyyətin yaxşı olmasına dəlalət etməyəcək. Bu qərar məlum olduğu kimi qiyməti qalıdaracaq. Bunu yanlış hesab edirəm. Ona görə ki, qiymətin artırılması istehlakı aşağı salır.

***Anar Kəlbiyev***

# Əcnəbi və vətəndaşlığı olmayanlarla bağlı yeni qayda

***Qanunsuz miqrantların saxlanılması mərkəzlərinə məcburi yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin azad edilməsi qaydaları müəyyənləşir.***

"Unikal" xəbər verir ki, bu, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan Miqrasiya Məcəlləsinə təklif olunan dəyişiklik layihəsində əksini tapıb.



Qeyd olunub ki, təklif edilən yeni dəyişikliyə əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mərkəzdə saxlanılması müddəti onların orada yerləşdirilməsi barədə qərara uyğun olaraq qəbul edildikləri andan hesablanacaq.

Belə ki, mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların mərkəzdə yerləşdirilməsi barədə qəbul edilmiş qərarda göstərilən müddət başa çatanadək həmin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mərkəzdə saxlanılması müddətinin uzadılması, yaxud azad edilməsi (və ya buraxılması) məsələsi həll olunmalıdır. Mərkəz rəisi bu barədə həmin şəxsin orada yerləşdirilməsi müddətinin başa çatmasına 1 iş günü qalmış müvafiq icra hakimiyyəti orqanına şifahi və ya yazılı qaydada məlumat verir. Məhkəmənin qərarı əsasında uzadılma halları istisna olmaqla, müvafiq icra hakimiyyət orqanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mərkəzdə saxlanılması müddətinin uzadılması, yaxud azad edilməsi haqqında qərar qəbul ediləcək.

Həmçinin, mərkəzdə saxlanılanların yerləşdirilməsi müddətinin uzadılması, yaxud azad edilməsi haqqında qərar ora daxil olduqda dərhal icra edilməlidir.

Məcəlləyə əlavə edilən maddələrə görə, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Mərkəzdə yerləşdirilməsi barədə qəbul edilmiş qərarda müəyyən olunmuş müddət başa çatdıqda və bu müddət uzadılmadıqda mərkəzin rəisi müvafiq qərar olmadan protokol tərtib edəcək və bu barədə əcnəbinin və vətəndaşlığı olmayan şəxsin orada məcburi yerləşdirilməsi barədə qərar qəbul etmiş vəzifəli şəxsə və ya hakimə məlumat verməklə şəxsi azad edəcək.

38_27 IYUl-QARA.qxd 10/31/2024 9:51 PM Page 8



# Teymur Musayev tənqid hədəfində

## Azərbaycanlı həkimlərin kütləvi halda Almaniyaya axın etməsinə görə Səhiyyə Nazirliyi də ittiham olunur

***2023-cü ildə 162 azərbaycanlı həkim Almaniyada qeydiyyatdan keçərək peşə fəaliyyətinə başlayıb. Bu barədə bir müddət öncə Alman Tibb Assosiasiyasından bildirilmişdi.***

Məlumatda qeyd olunur ki, hazırda Almaniyada həkim fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşlarının sayı 1521 nəfərə yaxındır. Həkim kimi çalışmaq istəyən 200-ə yaxın azərbaycanlı isə müxtəlif klinika və hospitallarda təcrübəyə cəlb olunub.

Bundan əvvəl isə Almaniyanın Bad Salzungen Xəstəxanasının Qulaq, burun, boğaz xəstəlikləri və üz plastik cərrahiyyə klinikasının şöbə müdiri Cavid Hüseynzadə Azərbaycandan Almaniyaya gedən həkimlərlə bağlı paylaşım etmişdi. Belə ki, o, Alman Tibb Assosiasiyasının 2022-ci ilin dekabrına olan nəticələrə əsasən, adı çəkilən ölkədə 421 min həkimin işlədiyini vurğulamışdı. Sitat: "Bunun 14 faizdən çoxu - 60 minə yaxını Almaniyaya başqa ölkələrdən gələnlərdir. 2022-ci ilin məlumatına əsasən, bu ölkədə azərbaycanlı həkimlərin sayı isə 1359 nəfər olub".

Müstəqil ekspertlər isə Almaniyada işləmək üçün bu ölkəyə üz tutan Azərbaycan həkimlərinin sayı daha çoxdur. Məsələn, təhsil mütəxəssisi Kamran Əsədov öz sosial media hesabında qeyd edib ki, son 5 il ərzində Almaniyaya köçən azərbaycanlı tibb işçilərinin sayı 3 mini ötüb: "Azərbaycanda tibb mütəxəssislərinin Almaniyaya kütləvi şəkildə köçməsi ölkədə həkim çatışmazlığı problemini daha da kəskinləşdirir. Qəbul plan yeri artırılmalıdır" deyən ekspert əlavə edib ki, tibb tələbələri təhsil aldıqları müddətdə alman dili kurslarına qatılaraq xaricdə işləməyə hazırlaşırlar.

"Ölkədə hər 1000 nəfərə 2,1 həkim düşməsi, Almaniyada isə bu rəqəmin 4,3 olması tibb təhsilinə qəbulun artırılmasının nə qədər zəruri olduğunu göstərir" - ekspert vurğulayıb.

Əsədov qeyd edib ki, Azərbaycan tibb təhsili üzrə digər ölkələrlə müqayisədə geri qalır: "Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər 1000 nəfərə düşən həkim sayında dünya ortalaması təxminən 3,5-dir. Bu isə Azərbaycanda tibb kadrlarının yetişdirilməsi və saxlanılmasının milli səhiyyə sisteminin dayanıqlığı üçün əsas olduğunu göstərir. Bununla yanaşı, yüksək səviyyəli mütəxəssislərin hazırlanması üçün tibb təhsilinin keyfiyyəti və müasir standartlara uyğun olması da vacibdir. Müasir tədris laboratoriyaları, klinik təcrübə imkanları, həmçinin beynəlxalq təlim və proqramlarla əməkdaşlıq vasitəsilə tələbələrin praktik bilikləri artırıla bilər".

Ekspert onu da əlavə edib ki, əgər Azərbaycan Tibb Universiteti beynəlxalq səviyyədə tanınan kurslar və təlim proqramları ilə əməkdaşlığı genişləndirərsə, tələbələrin daha keyfiyyətli təhsil alması və xaricə axının azalması mümkündür.

Tanınmış kardioloq Üzeyir Rəhimov isə bir müddət öncə sosial şəbəkə hesabındakı paylaşımında Azərbaycandan təkcə Almaniyaya çox sayda həkimin getməsini "çox düşündürücü" adlandırmış və vurğulamışdı ki, həmin sayın zamanla artacağı da dəqiqdir. Onun fikrincə, buna səbəb olacaq bir çox faktorlar var: "Təhsil aldıqları universitetdəki və ya daha sonra çalışmağa başladıqları yerlərdəki aldıqları psixoloji travmalar, güvənli həkim haqlarını qoruyan, həkim və pasiyent əlaqələrini tənzimləyən qaydaların olmaması və bu barədə ümumiyyətlə düşünülməməsi, maddi rifah və mənəvi əminliyin olmaması sayıla bilər. Yəqin ki, heç kəs vətənini buraxıb getmək istəməz. Gedənlər bir şey itirdilərmi? Xeyr, tam tərsi, gələcəklərini güvənə aldılar və məsləki olaraq işlərindən zövq alacaqlar. Üzücü olsa da, ora gedən məsləkdaşlarım adına sevinirəm".

Azərbaycandan Almaniyaya həkim axını ilə bağlı faktlarla bağlı Səhiyyə Nazirliyinin ünvanına da iradlar səsləndirilir. Hesab olunur ki, nazirlik bu sektorda illərdir yığılıb qalan problemlərin müəyyənləşdirilməsi, həmin problemlərdən həll yollarının tapılması və ölkədəki həkim kontingentinin istər maddi, istərsə də mənəvi-psixoloji baxımdan rahat çalışması istiqamətində real addımlar atmaqda yubanır. Azərbaycan Həkimlər İctimai Birliyinin sədr müavini Aydın Əliyevin "Cebheinfo.az"-a bildirdiyi kimi: "Bəzən 5 min, yaxud 10 min manat maaş alan həkimlərin olduğunu deyirlər. O həkimlərin sayı nə qədərdir? Belə maaş alan cəmi 5-10 həkim var. Lap 50-100 həkim olsun. Bəs digər 35 min həkimin maaşı ilə maraqlanmaq lazım deyil? Məsələn, bir həkim gecə-gündüz çalışıb 5-10 min manat pul qazanırsa, onu əllərində bayraq edirlər. Poliklinikada 100 xəstə müayinə edən həkim nə qədər əməkhaqqı alır? Yəni, Azərbaycan səhiyyəsinin yükü 5-10 min manat pul alan bir neçə həkimin çiynində deyil. Səhiyyənin yükü poliklinikada, təcili yardımda ayı 800-1000 manata illərlə işləyən həkimin çiynindədir. Həkim əlcək, kağız, xətkeş, qələm alır, katrec doldurur, bəzi həkimlər var ki, onlardan aylıq pul yığırlar. Bu sözləri deyəndə isə fakt istəyirlər. Hansısa həkimlə bağlı fakt göstərəndə ona qarşı kampaniyaya başlayacaqlar, sonra da işdən çıxardacaqlar. Ona görə də tibb işçisi də bu məlumatı verməyə qorxur. Qorxur ki, aldığı o cüzi maaşdan da məhrum olar".



Sədr müavininin sözlərinə görə, xaricə gedənlər universitetin son kursundan deyil, bəzən elə I, II kursdan alman dilinə hazırlaşmağa başlayırlar: "Artıq 20 yaşı olan tələbə mövcud şəraiti başa düşür, dəfələrlə poliklinikaya, həkimə gedib, xəstəxanalardakı vəziyyəti, müasir avadanlığın olmadığını, tibb işçilərinin vəziyyətini görür və düşünür ki, 5 ildən sonra mən də bu vəziyyətdə olacağam. İnternetdə Almaniyadakı həkimin maaşına baxır, görür ki, rezident 3 min avro alır. Azərbaycanda isə rezident 450 manat maaş alır". A.Əliyevin fikrincə, belədə Azərbaycandan Almaniyaya həkim axını təəccüb doğurmamalıdır.

Bəs yerli səhiyyəmizdəki çox saylı problemlər Səhiyyə Nazirliyini nə qədər narahat edir? Sabiq nazir Oqtay Şirəliyevin zamanında həmin problemlərin həlli istiqamətində nəinki konkret işlər görülmədi, hətta həmin problemlər daha da dərinləşdi. Lakin əksəriyyətin fikrincə, Şirəliyevin xələfi Teymur Musayev də hələ ki, Azərbaycan səhiyyəsinin köklü problemlərini müəyyənləşdirmək və onların həll yollarını tapmaq baxımından gözləntiləri doğrultmur. Müstəqil mütəxəssislərə görə, elə ölkəmizdən xaricə, Avropaya həkim axınının başlıca səbəblərindən biri də budur...

Xatırladaq ki, T.Musayev 3 ilə yaxındır səhiyyə naziri postunu tutur. Musayev həmin vəzifəyə 2022-ci ilin yanvarında təyinat alıb. Buna qədər isə o, 8 ay müddətində (2021-ci il aprelin 23-dən) səhiyyə nazirinin birinci müavini işləyib, eyni zamanda səhiyyə nazirinin səlahiyyətlərini icra edib.

*Sənan Mirzə*




## COP29 zolağına girən sürücülər cərimələnəcək

***Bu gecə saat 00:00-dan etibarən Bakı şəhərinin bir sıra küçə və prospektlərində təşkil edilən COP29 zolaqlarına avtomobillərin daxil olması qadağan ediləcək.***

"Unikal" xəbər verir ki, COP29 zolaqlarına daxil olanlar 100 manat və 2 bal cərimələnəcəklər.

Artıq həmin zolaqlara avtobus zolağı statusunu verən 5.9, yəni "Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolaq" yol nişanları quraşdırılıb.

## "Kartdan karta" üsulu ilə işləyən daha 70 sahibkar cərimələndi

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhərində iaşə və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan daha 70 vergi ödəyicisinə maliyyə sanksiyaları tətbiq edib.***

"Unikal" xəbər verir ki, pərakəndə ticarət və iaşə obyektlərində nağdsız ödənişlərin POS-terminal deyil, kartdan-karta köçürmə əməliyyatları vasitəsilə həyata keçirilməsi hallarının qarşısının alınması məqsədilə vergi nəzarəti tədbirləri davam etdirilir.

Tədbirlər nəticəsində 70 obyektdə müştərilərə sistematik şəkildə kartdan-karta köçürmələr etmək təklif olunduğu müəyyənləşdirilib. Həmin sahibkarlıq subyektlərinə protokollar tərtib olunub və maliyyə sanksiyalarının tətbiqi barədə qərarlar qəbul edilib.

"Nağdsız vəsaitin qəbulu yalnız POS-terminal vasitəsilə həyata keçirilməli və bu zaman vətəndaşlara POS-terminalın qəbzi ilə yanaşı nəzarət-kassa aparatının çeki də təqdim edilməlidir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna uyğun olaraq POS-terminalların quraşdırılması, "Elektron ticarət haqqında" Qanuna əsasən isə istehlakçıların elektron ödəniş etmək imkanının yaradılması vergi ödəyicilərinin birbaşa vəzifələrinə aiddir", - deyə açıqlamada qeyd olunub.

## COP29 zamanı qida satış nöqtələrində qidalanma ödənişli olacaq

***COP29 portal və satış nöqtələrində, restoran və kafelərdə qida ödənişli olacaq.***

"Unikal" xəbər verir ki, bunu COP29 üzrə Ketrinq, Təmizlik və Tullantıların Təmizlənməsi Demprtamentinin şöbə müdiri Anar Zeynalov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, COP29 Əməliyyat Şirkətinin əməkdaşları və könüllülər pulsuz xidmətdən yararlanacaq: "Menyular QR kod vasitəsilə qonaqlara təqdim olunacaq.

Şirkət rəsmisi həmçinin deyib ki, COP29 tədbiri müddətində əsasən yerli məhsullara üstünlük veriləcək.



# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

***2024-cü ilin oktyabrın 30-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.***

“Unikal” xəbər verir ki, iclasda çıxış edən Şuranın sədri İnam Kərimov son dövrlərdə məhkəmə sahəsində görülmüş işlər barədə məlumat verərək bildirib ki, bu gün ölkəmizdə məhkəmə işinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində əməli tədbirlər həyata keçirilir və bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənir.

Eyni zamanda aparılan kadr islahatları, Ali Məhkəmə və Apellyasiya instansiyası məhkəmələrinə yeni hakimlərin təyin edilməsi və peşəkar hakim korpusunun formalaşdırılmasının ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəyi diqqətə çatdırılıb.

İclasda həmçinin intizam icraatı üzrə işlərə, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və kadr məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

Daha sonra təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiyinə görə fəxri fərmanla təltif ediliblər.

# Hüseyn Abdullayevin məhkəməsi bu səbəbdən təxirə düşdü

***Həbsdə olan sabiq deputat Hüseyn Abdullayevin cinayət işi üzrə məhkəməsinin növbəti prosesi keçirilib.***

”Unikal”ın məlumatına görə, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə onlayn formada keçirilməsi nəzərdə tutulan prosesdə Hüseyn Abdullayev iştirak edə bilməyib.

Onun vəkili Cavad Cavadov təqsirləndirilən şəxsin prosesdə iştirak edə bilməməsinin səbəbini səhhətində ilə bağlı olduğunu bildirib. O, Hüseyn Abdullayevin səhhətində yaranan problemlərin ötən gündən daha da kəskinləşdiyini söyləyib.

Hakim Azər Tağıyev həmin məsələnin araşdırılması və rəsmi sənədlərin hazırlanması ilə bağlı İstintaq Təcridxanasına sorğu göndəriləcəyini qeyd edib.

Təqsirləndirilən şəxsin iştirakının təmin edilməsi üçün məhkəmə iclası qeyri-müəyyən vaxtadək təxirə salınıb.

Qeyd edək ki, Hüseyn Abdullayev Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma) maddəsi ilə təqsirləndirilib.

İstintaqla Hüseyn Abdullayevin bilə-bilə cinayət yolu ilə əldə etdiyi əmlakın həqiqi mənbəyini gizlətmək məqsədi ilə özünün və ailə üzvlərinin adlarına ölkəmizdə fəaliyyət göstərən banklarda açılmış 7 bank hesabı vasitəsi ilə ümumilikdə 5.5 milyon manatdan artıq pul vəsaitini müxtəlif fiziki və hüquqi şəxslərin Azərbaycan Respublikası və xarici ölkələrdəki bank hesablarına köçürməklə, konvertasiya əməliyyatlarını həyata keçirməklə, habelə qanunsuz əqdlər bağlamaqla yaxın qohumunun adına Azərbaycan Respublikası ərazisində daşınmaz əmlaklar alaraq həmin məbləğdə pul vəsaitini leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Xatırladaq ki, Hüseyn Abdullayev 2018-ci ildə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluqda ittiham edilərək 6 il müddətinə azadlıqdan məhrum edilmişdi. Həbs müddətinin bitməsinə az qalmış onun barəsində yenidən cinayət işi başlanılıb. Sabiq deputat hazırda həbsdədir.

# Sahil Babayevin kadrı ətrafında müəmma

## DSMF-nin pensiya, müavinət və təqaüdlərin ödəniş tarixini dəyişdirməsi narazılıq doğurub, Himalay Məmişov isə susur

***Oktyabrda rayonlarda əhaliyə pensiya və müavinətlərin, o cümlədən güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin təqaüdlərin ödəniləcəyi tarix ay sonuna ”sürüşdürüldü”. Oxşar hal sentyabr ayında da baş vermişdi. Belə ki, əhaliyə pensiya və müavinətlərin əvvəlki aylara nisbətən bir neçə gün gec ödənilməsi narazılıqlara səbəb olmuşdu.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Rəşad Mehdili bu barədə sorğuları cavablandırarkən bildirib ki, ölkə üzrə aylıq sosial ödənişlər, o cümlədən pensiyalar müvafiq ayın son günü ödənilməli olduğu halda müəyyən edilmiş qrafikə əsasən daha tez müddətlərdə ödənilir. Onun sözlərinə görə, əvvəlki aylarda olduğu kimi cari və növbəti ayların pensiyaları da ay yekunlaşmadan bank kartlarına köçürüləcək. “Qeyd olunanları nəzərə alaraq, hazırda müəyyən edilmiş qrafikə görə, Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonunda pensiyalar hər ayın 8-15-i aralığında, respublikanın digər bölgələrində, o cümlədən güzəştli şərtlərlə pensiya ödənişləri isə 20-28-i aralığında ödənilir”, - o əlavə edib.



R.Mehdili konkret tarix açıqlamasa da, bildirib ki, sosial ödənişlərin bank kartlarına köçürüləcəyi tarixlər barədə vətəndaşlara əvvəlcədən məlumat verilir. “Bildirmək istərdik ki, təcrübədə cari ayın pensiya ödənişlərinin növbəti aya keçməsinə, yəni hər hansı gecikmə halına rast gəlinməmişdir”, - DSMF sözçüsü vurğulayıb.

Rəşad Mehdilinin açıqlamasından bu qənaətə gəlmək olar ki, DSMF yeni qrafik müəyyən edib və vurğulanır ki, ayın 28-nə qədər vətəndaşların pensiya və müavinətləri ala bilməsi normaldır. O, xüsusi olaraq qeyd edir ki, ödənişlər cari ay üçün nəzərdə tutulduğuna görə onun hansı tarixdə ödənilməsini DSMF müəyyənləşdirir. Çünki ödənişlərin verilməsi başqa aya keçirilmir. Azpolitika.info isə yazır ki, R.Mehdili bir məqamı unudur: vətəndaş pensiya və ya müavinəti avqust ayının 14-də, sentyabrın 17-də alıbsa, oktyabrda da bir neçə günlük gecikmə əhalinin sosial baxımdan həssas olan bu təbəqələrinə problemlər yaradır. Əgər oktyabrda ödənişlər öncəki aydan bir həftə gec ödənilirsə, bu artıq o deməkdir ki, vətəndaş 37 gündən sonra gəlir əldə edir. Bu da dərman, qida, kredit ödənişləri və s. ehtiyaclarını dövlətin verdiyi bu ödənişlər vasitəsi ilə qarşılayan vətəndaşlar üçün ciddi problemlər deməkdir: ”Maraqlı məqamlardan biri odur ki, DSMF pensiya və müavinətlərin qrafikinin hansı səbəbdən hər ay irəli tarixə “sürüşdürülməsinin” səbəbini açıqlamır. Bir halda ki, qurum gəlirlərinin artdığı barədə məlumatlar açıqlayır, o zaman ictimai narazılıq doğuran qrafikdəyişmə əməliyyatına hansı zərurət var?”

İqtisadçı Rəşad Həsənov isə oktyabr ayında da ölkədə müavinətlərin və təqaüdlərin gecikdirilməsini şərh edərkən bildirib ki, DSMF-nin gəlirlərində artım müşahidə olunur və yığımlar proqnozdan artıq icra olunur: ”Dövlət büdcəsinə baxanda da görürük ki, orada da profisit var. Bu, onu deməyə əsas verir ki, burada söhbət pulun yoxluğu ilə əlaqədar deyil”. Ekspert gecikmələrin səbəbinin texniki məsələlər ola biləcəyini deyib: ”Mümkündür ki, bu, hesabatlarla bağlıdır, yəni xəzinədarlığın reqlamenti dəyişib”. Bununla belə, R.Həsənovun da fikrincə, nəzərə almaq lazımdır ki, söhbət çox böyük sosial qrupdan - 1 milyon 100 mindən artıq pensiyaçıdan və 600-700 min digər sosial ödənişlər alanlardan gedir: ”Onların da çox böyük əksəriyyəti azgəlirli həssas sosial qruplardır və bütün ailə gəlirlərinin planlaması məhz dövlətdən olan ödənişlər üzərində qurulub. Zamanında bu ödənişlərin edilməməsi fəsadlar yaradır: kreditlərə əlavə faizlər hesablanır, kommunal ödənişləri vaxtında edilmədiyinə görə işıq, su, qaz, internet xidmətləri kəsilir. Yəni, insanlar çətin vəziyyətdə qalırlar”.

Yeri gəlmişkən, DSMF-nin məlumatına görə, 2024-cü ilin yanvar-sentyabr ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda proqnoza nisbətdə 139,9 mln. manat və ya 3,5% artım qeydə alınıb. Qeyd olunur ki, büdcə təşkilatları üzrə daxilolma ötən ilin müvafiq dövrü ilə müqayisədə 111,4 mln. manat və ya 8,6%, qeyri-büdcə təşkilatları üzrə isə 277,3 mln. manat və ya 11,2% artımla olub. Belə görünür, ekspertlərin də vurğuladığı kimi, yığım hər ay artımla olur, maliyyə problemi də yoxdur, o zaman DSMF gecikdirilmənin səbəbləri barədə ictimaiyyətə dolğun məlumat verməyə borcludur.

Lakin qurumun İdarə Heyətinin sədri Himalay Məmişov mətbuatda və sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olan mövzu barədə hələ ki, susur. Xatırladaq ki, o, Sahil Babayevin 2018-ci ilin aprelində əmək və əhalinin sosial müdafiəsi naziri postuna təyinat almasından qısa müddət sonra ƏƏSMN-də işləməyə başlayıb və qısa müddətdə yüksəlib.Bir az da dəqiqləşdirsək, elə həmin ilin avqustunda Nazirlər Kabineti Aparatının Beynəlxalq əlaqələr şöbəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatında Sosial təminat siyasəti şöbəsinin müdiri vəzifəsinə gətirilən Məmişov 2019-cu ilin yanvarında Sahil Babayevin müşaviri təyin olunub. Cəmi iki ay sonra isə DSMF sədri təyin edilib.

***Sənan Mirzə***

38_27 IYUl-QARA.qxd 10/31/2024 9:51 PM Page 10



# Məmurların "qızıl biznesi" təhlükədə

## Fantastik bahalaşma alıcılarda böyük tərəddüd yaradıb - Bəd xəbər: qiymətlər daha da artacaq!



***Dünya bazarında qızılın qiyməti rekord həddə çatıb. Belə ki, bu gün qızılın qiyməti ilk dəfə 2800 dollar həddini keçib. Nyu-York əmtəə birjasında bu səhər 1 unsiya qızıl 2801,7 dollara satılıb. Bundan əvvəl qızıl 2700 dollarlıq psixoloji həddi sentyabrın 26-da aşıb.***

Bununla da ilin əvvəlindən qiymət artımı 35 faizə çatıb. Qızılın qiymətini artıran amillər arasında dünyada geosiyasi risklərin kəskinləşməsi, monetar siyasətin yumşaldılması və ABŞ-da prezident seçkilərinin nəticəsinin qeyri-müəyyənliyi var. Bütün bunlar təhlükəsiz sığınacaq kimi qızıla tələbatı artırır. ABŞ-da seçkilərə qədər son həftələrdə ştatlarda siyasi qeyri-müəyyənlik faktoru qızılın bahalaşmasını xüsusilə sürətləndirir.

Qiymət artımı Azərbaycana da təsirsiz ötüşməyib. Modern.az qızıl alış-satışı ilə məşğul olan bir neçə satıcı ilə həmsöhbət olub. Satıcıların verdiyi məlumata görə, qızılın satış qiymətində ötən illə müqayisədə ciddi artım qeydə alınıb. "Məsələn, ötən il 90, 95, 100 manata satılan 583 və 585 əyarlı qızıl-zinət əşyaları hazırda 120, 125 və 130 manata təklif olunur. 750 əyarlı İtaliya qızılı isə daha bahadır. Hazırda bu qızıl alıcılara 155-160 manata təklif edilir", - satıcılardan biri deyib.

Qızılın bahalaşması bazarda durğunluğa səbəb olub. Müştərilər qızılın qiymətinin artmasından narahatdır, onlar ötən il aldıqları qiymətə qızıl tapa bilmirlər. Bəzi müştərilə isə qızılın bahalaşdığı kimi anidən ucuzlaşa biləcəyindən ehtiyat edir və qızıl almağa tərəddüd edirlər. "Son iki ayda qızıl qiymətlərində daha kəskin artım var. Nümunə üçün deyə bilərəm ki, 585 əyarda olan Türkiyə istehsalı olan qızılı 15 gün əvvəl qramını 100 manata satırdıqsa, bu gün 115-120 manat arasında satırıq. İstehsal olunan ölkəyə, çəkisinə, dizaynına, modelinə görə qiymətlər fərqlidir. Məsələn, qramı 145,150, hətta 160 manat olan modellər də var", - digər bir satıcı qeyd edib.

Ekspertlər isə qızılın daha da bahalaşacağını düşünür. Zərgərlər Assosasiyasının sədri Toğrul Abbasquliyevin sözlərinə görə, qızıla ciddi yatırımlar müşahidə edilir. "Bu yatırımlar, əsasən, müxtəlif ölkələrin Mərkəzi Bankları tərəfindən edilir. Bunun səbəbi, təbii ki, regionda və ümumilikdə dünyada baş verən münaqişələrdir. Onların sayı artdıqca ciddi yatırım alətlərinə ehtiyac duyulur. Qızıl ən stabil yatırım alətlərindən biridir. Təbii ki, tələbat artdıqca qiymətlər müsbət mənada irəliləyir. Qərbi Avropada 8 karat dediyimiz 333 əyarlı qızıllar çox populyarlaşıb. Bunun əsas səbəblərindən biri də qızılın birja qiymətinin qalxmasıdır", - o, telekanallardan birinə açıqlamasında deyib. Həmçinin bildirib ki, 2020-ci ilin əvvəlində 40-42 dollar civarında, 909 əyarlı qızılın 1 qramının qiyməti bu gün artıq 83 dollardır: "İlin əvvəlində isə qiymətlər 20 faizdən də çox artıb. Təbii ki, dünya ekspertləri belə bir statistikaya baxdıqda qızılın qiymətinin daha da artacağını proqnozlaşdırırlar".

Bir çox sahələrdə olduğu kimi, Azərbaycanın qızıl bazarında da müəyyən məmurların xüsusi çəkisi var. Hətta bəzi indiki və keçmiş vəzifəli şəxslərin xüsusilə paytaxtdakı müxtəlif ticarət mərkəzlərində, eləcə də mərkəzi yerlərdə, məsələn, "Gənclik" metrosu ətrafında qızıl dükanlarının, həmçinin müəyyən ünvanlarda qızıl sexlərinin olduğu barədə media çoxdan yazır. Bu sırada Xətai rayon icra hakimiyyətinin sabiq başçısı Razim Məmmədovun, mərhum gənclər və idman naziri Azad Rəhimovun, keçmiş deputat və "Mərkəzi Univermaq"ın mərhum direktoru Ərəstun Cavadovun, mərhum vergilər naziri Fazil Məmmədovun adı uzun illər KİV-də mütəmadi çəkilirdi. Həmçinin vaxtilə Azərbaycanda qızıl biznesinin ən çəkili məmurlarından biri sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev olub. Sabiq nazirin Bakıda qızıl-zinət əşyalarının satışı ilə məşğul olan mağazalar şəbəkəsinə qeyri-rəsmi nəzarət etdiyi deyilirdi. Onun vəzifəsindən azad edilərək həbsə atılmasından sonra həmin mağazalar şəbəkəsinin də əl dəyişdirdiyinə dair iddialar yayılmışdı. Baş nazirin keçmiş müavini, Bakının eks-meri Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbovun isə qiymətli zinət əşyalarının satışı ilə məşğul olduğu kimsəyə sirr deyil.

İndinin özündə də bəzi keçmiş və hazırkı məmurların qızıl bazarında ciddi paya sahib olduğu deyilir. Bu mənada qızılın bahalaşmasının onların həmin biznesini təhlükə altında qoyduğunu düşünmək mümkündür. Məsələ orasındadır ki, bahalaşma alıcıların sayını kəskin şəkildə azaldır, nəticə etibarilə qızıl biznesindən əldə olunan gəlir də azalır.

**Toğrul Əliyev**

# AMB bu mərkəzlərin fəaliyyətini dayandırır




***Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qərarı ilə biznes proseslərin optimallaşdırılması çərçivəsində bu ilin sonunda qurumun Gəncə və Quba Regional Mərkəzlərinin, Sumqayıt Şəhər İdarəsinin fəaliyyətinə xitam verilməsi nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bu barədə AMB-nin məlumatında bildirilib. Qeyd olunub ki, bu qərar yerli bankların nağd pulun logistikası üzrə regional infrastrukturunun inkişafı, bu infrastruktur vasitəsilə müvafiq regionlarda nağd pula olan tələbin ödənilməsi və biznes proseslərin effektivliyinin artırılması ilə əlaqədardır.

Bununla da Gəncə Regional Mərkəzində xidmət olunan banklara və milli poçt operatoruna AMB-nin Yevlax Ehtiyat Mərkəzində, Quba Regional Mərkəzi və Sumqayıt Şəhər İdarəsində xidmət olunan banklara və milli poçt operatoruna isə AMB-nin Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi, 90 və Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 10 ünvanlarında yerləşən inzibati binalarında xidmət göstəriləcək.

Optimallaşdırma tədbirləri nəticəsində tədavülə yararsız milli pul nişanlarının dəyişdirilməsi, köhnə nümunəli milli pul nişanlarının yeni nümunəli pul nişanlarına dəyişdirilməsi, pul nişanlarının ekspertizaya qəbulu, yubiley-xatirə pul nişanlarının satışı ilə bağlı vətəndaşlar AMB-nin aşağıda qeyd olunan ünvanlarına və ya ölkə ərazisində fəaliyyət göstərən kommersiya banklarına müraciət edə bilərlər.

**Bakı şəhəri:**

AMB-nin inzibati binası, Bakı şəhəri, Səbail rayonu, Bülbül prospekti 27

**Yevlax şəhəri:**

AMB-nin Yevlax Ehtiyat Mərkəzinin inzibati binası, Yevlax şəhəri, Heydər Əliyev prospekti, 82

**Biləsuvar şəhəri:**

Biləsuvar Regional Mərkəzinin inzibati binası, Biləsuvar şəhəri, Heydər Əliyev küçəsi, 2B

**Naxçıvan şəhəri:**

Naxçıvan Muxtar Respublikası İdarəsinin inzibati binası, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 32

Eyni zamanda, maliyyə xidmətləri istehlakçıları yuxarıda qeyd edilən ünvanlara yaxınlaşaraq nəzarət subyektləri ilə bağlı müraciətlərini (ərizə, şikayət və ya təklif) şifahi və ya yazılı formada, eləcə də www.contact.e-cbar.az elektron müraciətlər sistemi vasitəsilə elektron qaydada AMB-yə ünvanlaya bilərlər. Qəbulda iştirak etmək istəyən şəxslər isə AMB-nin internet səhifəsində "Elektron xidmətlər portalı" vasitəsilə və ya https://randevu.e-cbar.az/home səhifəsinə keçid edərək onlayn növbə əldə edə bilərlər. Bununla yanaşı, AMB-nin fəaliyyəti ilə əlaqədar, o cümlədən yuxarıda qeyd olunan istiqamətlər üzrə əlavə suallar yarandığı təqdirdə vətəndaşlara AMB-nin "966 Qaynar Xətti" vasitəsi ilə əlaqə yaradılması tövsiyə olunur.

# Bu şəxslərə sınaq imtahanları pulsuz olacaq



***Gələn il keçiriləcək buraxılış imtahanların tarixi ilin sonuna qədər elan olunacaq.***

"Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə deyib.

O qeyd edib ki, 2025-2026-cı il buraxılış imtahanlarında 46 şəhid övladı iştirak edəcək.

M. Abbaszadənin sözlərinə görə, şəhid övladları üçün sınaq imtahanları pulsuz keçiriləcək.

# 12 mindən çox texnogen mənşəli hadisə olub

***Azərbaycanda 2024-cü ilin 9 ayı ərzində 12014 texnogen mənşəli hadisə baş verib.***

"Unikal" xəbər verir ki, bu barədə FHN-dən bildirilib.

Hadisələr nəticəsində nəticəsində 62 nəfər həlak olub, 240 nəfər xəsarət alıb. Bu, 2023-cü ilin 9 ayı ilə müqayisədə həlak olanlar üzrə 20 nəfər və ya 48%, xəsarət alanlar üzrə 66 nəfər və ya 38% çoxdur.

38_27 IYUl-QARA.qxd 10/31/2024 9:51 PM Page 11






## 2024-cü ilin 9 ayında Balakənin iqtisadi və sosial inkişafının göstəriciləri belə olub

***Məhsul istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında ilkin hesablamalara görə 1,4 faiz azalaraq 249867,7 min manat təşkil etmişdir. Məhsul istehsalının 22,2 faizi sənaye, 0,5 faizi tikinti, 44,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,9 faizi informasiya və rabitə, 29,2 faizi isə ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***

2024-cü ilin yanvar-sentyabr aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 55486,2 min manat olmuşdur. Qeyri-dövlət sektorunda istehsalın və xidmətlərin həcmi 48370,5 min manat və sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi 87,2 faiz olmuşdur. Dövlət bölməsində isə sənaye məhsulu istehsalının həcmi 7115,7 min manat olmaqla sənaye məhsulunun ümumi həcminin 12,8 faizini təşkil etmişdir.

İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş xidmətlərin 87,2 faizi emal sənayesinin, 11,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin payına düşür.

2024-cü ilin yanvar-sentyabr aylarında yüklənmiş malların həcmi 56870,0 min manat olmuş, o cümlədən öz istehsalı olan malların həcmi 55517,7 min manat təşkil etmişdir. Bununla yanaşı 2024-cü ilin oktyabr ayının 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında öz istehsalı olan hazır məhsul qalığı 134,6 min manat olmuşdur.

Kənd təsərrüfatı bitkilərinin yığımı davam edir və oktyabr ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 44389,0 ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,2 faiz az dənli, dənli paxlalı və yağlı bitkilər, 6655 ton (3,3 faiz çox) kartof, 24678,0 ton (18,2 faiz az) tərəvəz, 4228,0 ton (1,2 faiz çox) bostan məhsulları, 18265,2 ton (7,8 faiz çox) meyvə və giləmeyvə və 328,0 ton (1,2 faiz çox) üzüm və 105,3 ton (4,1 faiz çox) tütün yığılmışdır.

2024-cü ilin yanvar-sentyabr aylarında diri çəkidə 3306,0 ton ət, 16771,3 ton süd, 8129,0 min ədəd yumurta və 76,0 ton yun istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 20,2 ton və 0,6 faiz, süd istehsalı 56,5 ton və ya 0,3 faiz, yumurta istehsalı 56,0 min ədəd və ya 0,7 faiz və yun istehsalı 0,6 ton və ya 0,8 faiz artmışdır. 2024-cü il oktyabr ayının 1-i vəziyyətinə 36959 baş qoyun və keçi, 27282 baş iribuynuzlu mal-qara, o cümlədən 13202 baş inək və camış mövcud olmuşdur.

2024-cü ilin yanvar-sentyabr aylarında bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 6470,8 min manat məbləğində olmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ilin yanvar-sentyabr ayları ərzində 498,0 min ton yük və 5246,0 min nəfər sərnişin daşınmış, 2023-cü ilin müvafiq dövrünə nisbətən yük daşınması 6,2 faiz, sərnişin daşınması isə 7,5 faiz artmışdır.

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehlakçılara 2290,2 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çox xidmət göstərilmişdir.

2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsi 0,1 faiz artaraq 228155,2 min manat olmuşdur.

2024-cü ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlər əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,5 faiz artaraq 47713,9 min manat təşkil etmişdir.

2024-cü ilin yanvar-avqust aylarında iqtisadi və sosial sahələrdə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 8,7 faiz artaraq 566,4 manat təşkil etmişdir.

01 oktyabr 2024-cü il tarixinə rayonun əhalisi ilkin hesablamalara görə 100957 nəfər olmuş, əhalinin sayı ilin əvvəlindən 268 nəfər və ya 0,3 faiz artmışdır.

***Balakən Rayon Statistika İdarəsinin rəisi***

# Baba Tağıyevin başı yenidən dərddə

## Sabiq deputat və biznesmen məhkəməlik olmağa davam edir

***Baba Tağıyev üçüncü çağırış Milli Məclisin deputatı olub. O, parlamentdə 44 saylı Sumqayıt-Abşeron seçki dairəsini təmsil edib.Sabiq deputat və biznesmen 2007-ci ildə Milli Məclisin iclasında hökumətin hesabatı zamanı deputat Fəzail Ağamalı ilə Hüseyn Abdullayev arasında baş verən insidentlə bağlı gündəmə gəlmişdi. O, həmin vaxt yerindən qalxaraq yeyin addımlarla tribunaya tərəf getmiş və oradan deputatlara xitab edərək onları sakitləşdirməyə çalışmışdı. Tağıyevin bu addımı Milli Məclis rəhbərliyinin qəzəbinə səbəb olmuşdu.***



Məlum hadisədən sonra Baba müəllimin qəfil başlayan, üstəlik əksəriyyətin təəccübünə səbəb olan sürətli siyasi karyera yüksəlişi elə eyni sürətlə də enişə keçmişdi.

Uzun fasilədən sonra isə Baba Tağıyev yenidən qalmaqallı şəkildə medianın gündəminə gəlib. Belə ki, yola salmaq üzrə olduğumuz həftə sabiq deputata məxsus "Tağıyev" Şirkətinin inzibati məsuliyyətə cəlb edildiyi aydınlaşıb.

Yerli KİV-in məlumatına görə, şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsi ilə inzibati protokol tərtib edilib. İş baxılması üçün Abşeron Rayon Məhkəməsinə göndərilib və hakim Şəfəq Məmmədovanın icraatına verilib.

İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsi sahibkar tərəfindən yoxlama prosesində yoxlamaya aid sənədlərin yoxlayıcıya təqdim edilməməsi, yoxlama zamanı yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verilməməsi, təhrif olunmuş, yanlış məlumatın verilməsi və ya sahibkarlıq fəaliyyəti üçün istifadə olunan ərazjyə, istehsal və emal müəssisələrinə, anbarlara, satış sahələrinə, nəqliyyat vasitələrinə, habelə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan digər yerlərə baxış keçirilməsinə mane olmaqla bağlıdır.Maddədə inzibati cəza növü kimi vəzifəli şəxslərə 1000 manatdan 1500 manatadək məbləğdə cərimə nəzərdə tutulur.

Xatırladaq ki, "Tağıyev" Şirkəti əvvəllər "Avropa qapıları" adı altında fəaliyyət göstərib. Şirkət 27 dekabr 1999-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 37 927,4 manatdır. "Tağıyev" Şirkətinin qanuni təmsilçisi Tağıyev Baba Əli oğludur.

Onu da deyək ki, "Avropa qapıları"nın adı bir zamanlar çox məşhur idi. Daha dəqiq desək, "Tağıyev" şirkəti həmin adla qapı, pəncərə, eləcə də ev, ofis və bağ evləri üçün mebellər, plastik və dəmir məhsulların istehsalı və satışı ilə məşğul olurdu. "Olurdu" deyirik, çünki adıçəkilən şirkətin hazırda varlığı ilə yoxluğu o qədər də bəlli deyilg

"Unikal"ın bir müddət öncə də yazdığı kimi, əslində B.Tağıyevin ulduzunun parlamasında müstəsna rolu məhz "Avropa qapıları" oynayıb. Lakin 2010-cu ildə B.Tağıyev mandatını itirdikdən sonra "Avropa qapıları" üçün də işlər yolunda getməməyə başlayıb və onun fəaliyyəti xeyli dərəcədə zəifləyib. Bir az da dəqiqləşdirsək, 2013-cü ilin may ayında İqtisadi İnkişaf Nazirliyi "Avropa qapıları" adı ilə qapı və mebel istehsal edən "Tağıyev" şirkətinin istehlakçı hüquqlarını pozduğuna dair açıqlama yaydıqdan sonra Baba müəllimin biznesində çöküş başlandığı deyilir. Qeyd edək ki, həmin vaxt aparılmış yoxlama nəticəsində sözügedən şirkət tərəfindən vətəndaşlar Yarməmməd Əhmədov və Məhəmmədəli Əfəndiyevlə bağlanmış müqavilələrdə nəzərdə tutulan müddətlərə əməl olunmadığı, ödəniş şərtləri pozularaq hazırlanmış məhsulların dəyərinin istehlakçılardan onların faktiki ünvanında deyil, yaşadıqları binanın həyətində tələb olunduğu müəyyənləşdirilmişdi. Aşkar edilmiş pozuntularla əlaqədar müəssisəyə mövcud qanunvericiliyə uyğun olaraq 4000 manat məbləğində cərimə tətbiq edilmişdi. Düzdür, bu cərimə iri bir şirkət üçün onu sarsıdacaq bir məbləğ sayıla bilməzdi, lakin bir şey aydın olurdu ki, Baba müəllimin qarşısında qapılar artıq əvvəlki kimi taybatay açıq deyil.

Belə ki, sabiq deputat və biznesmenin adı indi yalnız cərimələrlə, məhkəmə işləri ilə gündəmə gəlir. Bunların arasında İnzibati Xətalar Məcəlləsinin 428.7.1-ci maddəsi (müvafiq icazə, texniki şərtlər pasportu və icazə müqaviləsi olmaması, həmçinin onların tələbləri pozulmaqla açıq məkanda reklam yerləşdirilməsi) ilə cərimələnmək də var. Tağıyevin şirkəti barədə bir neçə ay öncə isə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən protokol tərtib edilmişdi. Həmin vaxt Dövlət Xidmətindən açıqlanan məlumata görə, "Avropa Qapıları" MMC-nin müştərilərə satdığı məhsulda istehsal qüsuru olmasına baxmayaraq, məhsul dəyişdirilməyib və ya qaytarılmayıb.

Bir sözlə, Baba müəllimin başı davamlı şəkildə məhkəmə iddiaları və cərimələrlə bəladadır. Bu gedişlə onun biznesini daha çətin günlər gözləyə bilər...

***Sənan Mirzə***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Qayıdışın ən özəl ünvanı

## Nazimə Məhərrəmova: "Şuşada dünyaya göz açan uşaqlar düşünürəm ki, daha xoşbəxt olacaq"

***İşğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış davam edir. Vətən müharibəsindən sonra Azərbaycan dövlətinin işğaldan azad edilən torpaqlarda həyata keçirdiyi mühüm quruculuq işləri qısa müddətdə bu yerlərə qayıdışa böyük imkan yaradıb.***

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi nəzərdə tutulub. Bu günədək ümumilikdə işğaldan azad edilmiş 8 şəhərin Baş Planı hazırlanıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri İbrahim Mirzəyev "Unikal" qəzetinin sorğusuna cavabda bildirib ki, 08.10.2024-cü il tarixinədək azad edilmiş ərazilərə ümumilikdə 2263 ailə, 8660 nəfər köçürülüb. Onun sözlərinə görə, onlardan Ağalı kəndinə 175 ailə, 871 nəfər, Talış kəndinə 20 ailə, 90 nəfər,Füzuli şəhərinə 823 ailə, 3136 nəfər, Laçın şəhərinə 570 ailə, 2090 nəfər, Zabux kəndinə 217 ailə, 823 nəfər, Şuşa şəhərinə 220 ailə, 823 nəfər, Xocalı şəhərinə 46 ailə, 179 nəfər, Sus kəndinə 59 ailə, 215 nəfər, Cəbrayıl şəhərinə 133 ailə, 433 nəfərin köçürülməsi təmin edilib.

Qarabağın incisi sayılan Şuşada da həyat öz axarına qayıdıb. Nazimə Məhərrəmova "Unikal" qəzetinə müsahibəsində bildirib ki, iki oğlu və onların ailəsi ilə birgə doğma torpaqlarında yaşayırlar. Şuşadan çıxanda gənc ailə olduğunu deyən Nazimə Məhərrəmova deyir ki, 32 il əvvəl övladlarının əlindən tutub məcburi ayrıldığı torpaqlara nəvələrinin əlindən




tutaraq geri qayıdıb. Həmsöhbətimiz deyir ki, Bakıya məcbur köçkün gəldikdən sonra tələbə yataqxanasında yaşayıblar. Həyatın ən çətin üzlərini məcburi köçkün həyatı yaşadığı müddətdə gördüyünü deyən N. Məhərrəmova bir gün belə doğma Şuşanı unutmadığını söyləyir.

"İllərlə yataqxanada yaşasaq da, bir gün belə öz evimizə geri dönəcəyimizə ümidimizi üzmədik. Hələ təzə-təzə gələndə Bakıda uzun müddət qalacağımıza inanmırdıq. Geyimlərimizi torbalardan çıxartmırdıq ki, tezliklə geri qayıdacağıq. Uzun illər öz doğma yurd-yuvamızdan didərgin düşsək də, Şuşaya geri qayıdacağımıza olan inamımızı itirmədik. Həyat yoldaşım da bu hisslə yaşayaraq dünyadan köçdü. Vətən həsrəti çox ağır oldu. Amma biz Şuşaya dönəcəyimizə inanaraq o günü həsrətlə gözlədik. Artıq bir neçə aydır ki, Şuşadayıq. Hələki evimizə istilik verilməyib. Şuşanın havası soyuq olsa da, vətən ocağının külü belə qəlbimizi qızdırır. Evimiz soyuq olsa da, ürəyimiz isinib. İndi rahatıq ki, artıq öz evimizdəyik", deyə şuşalı həmsöhbətimiz bildirir.

Şuşanı itirməyi öz doğmasını itirməklə müqayisə edən N. Məhərrəmova bütün gənclik xatirələrinin Şuşa ilə bağlı olduğunu söyləyir: "Yoldaşımla ailə quranda övladlarımızı da Şuşada böyüdüb boya-başa çatdıracağımızı düşünürdük. Çox gözəl arzularımız, planlarımız vardı. Mənfur qonşumuz bütün arzularımızı gözümüzdə qoydu. Şuşanın hər cığırından xatirələrimiz boylanır.Üç övladımızı çox çətinliklərlə böyütdük. Nə qədər doğmamız Şuşa həsrətilə dünyadan köçdü. Şükür bu günə ki, biz gec də olsa öz torpağımıza qayıda bildik. Oğullarımdan biri burada işləyir. Digər oğlumun işi Bakı ilə bağlı olduğundan gedib-gəlir. Amma əsas odur ailəmiz doğma torpağına qayıdıb. Şuşada bu gün elə bilirəm bizim qayıdışımıza dağlar da sevinir".

Artıq Şuşada həyatın öz axarına düşdüyünü söyləyən N. Məhərrəmova bugünlərdə Şuşada ilk körpənin dünyaya göz açdığını söyləyir. Deyir ki, bu xəbər Şuşada yaşayan hər kəsi sevindirib.

"Şuşada dünyaya göz açan uşaqlar düşünürəm ki, daha xoşbəxt olacaq. Biz övladlarımızı Şuşada böyüdə bilmədik. Düşmən buna aman vermədi. Şükür bu günə ki, nəvələrimiz Şuşada böyüyür. Şuşada dünyaya göz açmaq elə anadan xoşbəxt doğulmaq deməkdir. Bu torpaqda dünyaya göz açan uşaq ilk nəfəs aldıqda Şuşanın təmiz havasını udur. Şuşada iməkləyib, yeriməyə başlayan körpələr nə qədər xöşbəxt olduqlarını böyüdükdə fərqinə varacaqlar. Təmiz havası, saf suları, füsunkar mənzərəsi olan Şuşa cənnətin özüdür. Şuşada uşaqların doğulması bu torpağa yeni nəfəs verir. Artıq sanki təbiət də duyur ki, Şuşa camaatı bu yerlərə əbədi qayıdıb. Burada doğulub, böyüyüb, təhsil alıb, ailə qurub nəsil artırmaqla Şuşanı yenidən dirçəldəcəyik", müsahibimiz bildirib.

N. Məhərrəmova onu da deyir ki, Şuşa mədəniyyətin beşiyi olduğundan, burada tarixi məkanların yenidən qurulması vacibdir. O, Şuşaya köçəndən sonra dağların başında yerləşən bu alınmaz qalanın hər gün qonaq-qaralı olduğunu söyləyir. O, Şuşanın mədəniyyətin beşiyi olmaqla yanaşı, böyük turizm potensialına malik olduğunu, gələn qonaqların Şuşaya heyran qaldığını bildirir: "Şuşanı işğaldan əvvəl görənlər bu şəhərin illərdir həsrətini çəkdiyini söyləyirlər. Şuşaya yeni gələnlər də bu şəhərə valeh olur. Əminik ki, Şuşada quruculuq işləri başa çatandan sonra öz şöhrəti yenidən qayıdacaq".

Onun sözlərinə görə, Şuşadakı "Qarabağ", "Xarı bülbül", "Yasəmən" hotelləri, Şuşa Hotel-Konqres Mərkəzi hər gün qonaq-qaralı olur. O, Böyük Qayıdışdan sonra Şuşada həyatın öz əvvəlki axarına qayıtdığını bildirir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Özünü partladan Şəhid kəşfiyyatçının anası vəfat edib

***Torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmancasına şəhid olan cəsur kəşfiyatçı Fariz Cavadovun anasının dünyasını dəyişib.***

"Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş Fariz Cavadovun anası Biləsuvardakı məcburi köçkün qəsəbəsində vəfat edib. Mərhumu həmin qəsəbədəki məzarlıqda dəfn ediblər.

Şəhid Fariz Şəmil oğlu Cavadov 1975-ci il sentyabrın 10-da Cəbrayıl rayonunun Çaxırlı kəndində anadan olub. 1992-ci ildə orta məktəbi bitirib. 3 oktyabr 1993-cü ildə hərbi xidmətə çağırılan Fariz bir ay "N" saylı hərbi hissədə təlim keçib və cəbhənin Füzuli istiqamətində kəşfiyyatçı kimi xidmətə davam edib.

1997-ci ilin 7-10 aprel tarixində Azərbaycan Ordusunun 16 nəfərdən ibarət 2 kəşfiyyat qrupu o dövrdə işğalda olan Xocavənd və Hadrut istiqamətində düşmən arxasına sızaraq, döyüş tapşırığını şərəflə yerinə yetirib. Əməliyyatın 3-cü günü qruplardan birincisi itkisiz geri qayıdıb.

Lakin digər 8 nəfərdən ibarət ikinci qrup geri qayıdarkən mühasirəyə düşüb. Azərbaycan kəşfiyyatçıları təslim olmağı, düşmənə əsir düşməyi ağıllarına belə gətirməyərək ermənilərlə qeyri-bərabər döyüşə atılıblar...

Aprelin 7-dən 10-dək, düz üç günlük ağır döyüşlər zamanı az sayda qrup üzvləri əsl qəhrəmanlıq nümayiş etdiriblər.

Ağır döyüş zamanı yaralanmış qrup üzvü çavuş Aqil Əhmədov huşunu itirib. Onun artıq öldürüldüyünü zənn edən digər 7 nəfər döyüş sursatlarının bitdiyini görüb düşmən əlinə keçməmək üçün bir yerə toplaşıb və bir-birini qucaqlayaraq özlərini əl qumbarası ilə partladıblar.

Kəşfiyyatçılarımızın cəsarətli, mərdanə ölümləri hətta erməni komandirləri belə heyrətə salıb. Ermənilər 7 nəfər azərbaycanlı kəşfiyyatçının nəşini Hadrutda şəhid olduqları yerdə torpağa basdırıblar.

Qrupun komandiri leytenant Elxan Ataxan oğlu Ağayev, qrup üzvləri - leytenant Vüqar Rzaxan oğlu Yarəhmədov, çavuşlar - Anar Üzeyr oğlu Rzayev, Dinar İbrahim oğlu Mustafayev, Nizami Səfi oğlu Ələkbərov, Aqşin Əli oğlu Həsənov və Fariz Şəmil oğlu Cavadov idi...

10 aprel 1997-ci il tarixi Fariz Cavadovun şəhidliyə ucaldığı gün kimi yadda qalıb.

Sonradan ermənilərlə aparılan danışıqlar nəticəsində cəsur kəşfiyyatçılarımızın nəşləri düşmən tərəfdən geri alınıb və onlar Bakıdakı II Fəxri xiyabanda dəfn olunublar.

Qrupun ağır yaralanaraq huşsuz vəziyyətdə əsir düşmüş yeganə sağ qalan üzvü, Ermənistan məhkəməsinin barəsində ölüm hökmü çıxardığı çavuş Aqil Əhmədov 1 il 11 aydan sonra Azərbaycan tərəfinin səyi ilə geri alınıb. O, hazırda I qrup əlildir.

Qəhrəman döyüşçü Fariz Şəmil oğlu Cavadov 28 may 2017-ci ildə "Cəmşid Naxçıvanski" yubiley medalı, 24 iyun 1998-ci ildə isə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Bu ilin aprelində 7 şəhid kəşfiyyatçının ailə üzvlərinin Xocavənd rayonuna səfəri təşkil edilib. Onlar qəhrəmanların şəhid olduqları yeri ziyarət ediblər.



## Ötən il su ehtiyatlarından nə qədər istifadə edilib?

***2023-cü ildə su ehtiyatlarından istifadə 9,2 milyard kubmetr təşkil edib.***

"Unikal" xəbər verir ki, bu barədə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov deyib.

O bildirib ki, bu ehtiyatların 3,2 milyard kubmetri suyun mənbədən təsərrüfatlara çatdırılması zamanı infrastruktur, buxarlanma, sudan səmərəsiz istifadə və qanunsuz qoşulmalar səbəbindən itkiyə sərf olunub. 2003-cü ildə isə 26,2 milyard kubmetr su ehtiyatı formalaşıb ki, bunun 17,8 milyard kubmetri yerüstü, 8,4 milyard kubmetri yeraltı su ehtiyatlarının payına düşür.

## Sayt rəhbəri və oğlu şantaja görə həbs edildi

***Şirvanda "Dogruxeber.com" saytının baş redaktoru və redaktoru həbs olunublar.***

"Unikal" xəbər verir ki, onların ayrı-ayrı şəxslərdən hədə-qorxu ilə pul tələb etmələri və dələduzluq əməlləri barədə daxil olan məlumatlar əsasında Şirvan Şəhər Polis Şöbəsində araşdırma aparılıb.

Sayt rəhbəri İlham Həsənov və oğlu Renar Həsənov ayrı-ayrı şəxsləri həqiqəti əks etdirməyən, rüsvayedici məlumatlar yayacaqları ilə hədələməkdə, dələduzluq yolu ilə müxtəlif məbləğlərdə pul vəsaitini ələ keçirməkdə şübhəli bilinirlər.

Faktla bağlı cinayət işi başlanıb, onların barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə istintaq davam etdirilir.

## Buraxılış imtahanlarının vaxtı bu tarixdə açıqlanacaq

***"İndiki dərs yükü otuz il əvvəlki dərs yükündən fərqlidir".***

"Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə jurnalistlərin suallarını cavablandırarkən deyib.

"İndi təhsil alan uşaqlar 21-ci əsrin uşaqlarıdır. Bu uşaqlar gələcəkdə işləyəcəklər və buna indidən hazırlaşmalıdırlar. Uşaqlara erkən yaşdan vaxtı düzgün idarə etməyi öyrətmək lazımdır ki, dərs yükünün ağırlığından şikayət olmasın", - deyə Məleykə Abbaszadə qeyd edib.

Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri buraxılış imtahanlarının vaxtı ilə bağlı məsələyə də münasibət bildirib: "Buraxılış imtahanlarının vaxtı bütün nazirliklər və təhsil idarələrinin birgə qərarı verildikdən sonra ilin sonunda elan ediləcək".

# 326 milyonluq qaçaqmalçılıq: DTX-nin ifşa etdiyi qrupun məhkəməsi

***Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən istintaqı aparılmış cinayət işi üzrə Hidayətov Zöhrab Raqub oğlu, Şirinov Elvin Valeh oğlu və Hümbətov Qaçqın Şura oğlunun məhkəmə prosesi keçirilib.***

"Unikal" xəbər verir ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Fəhmin Hümbətovun sədrliyi ilə cinayət iş üzrə hazırlıq iclasının davamı keçirilib.

Təqsirləndirilən Şirinov Elvin Valeh oğlu və Hidayətov Zöhrab Raqub oğlunun barələrində olan həbs qəti imkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə vəsatət verilib.

Məhkəmə müşavirəyə gedib. Müşavirədən sonra vəsatətin təmin edilmədiyi açıqlanıb.

İşin məhkəmə baxışına təyin olunmasına qərar verilib.

Məhkəmənin baxış iclası noyabrın 7-nə təyin edilib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 192.3.2 və 206.3.2-ci maddələri ilə ittiham olunur.

Belə ki, Zöhrab Hidayətov müxtəlif hüquqi və fiziki şəxslərə aid məhsulların ölkədən saxta yolla sahibkar kimi qeydiyyatdan keçirdiyi Elvin Şirinovun




və Qaçqın Hümbətovun adından ixrac olunmasını təşkil edib, ixrac üçün nəzərdə tutulan bu məhsulların istehsalçılarının guya həmin şəxslər olduğuna dair gömrük orqanlarına saxta sənədlər təqdim edib, 326 milyon manatdan çox xüsusilə külli miqdarda məhsulları düzgün bəyan etməyərək xaricə çıxarmaqla qaçaqmalçılıq edib, bu qanunsuz əməllər eyni zamanda nağd pul vəsaitlərinin ölkədən çıxarılması və geri qaytarılmaması, kölgə iqtisadiyyatı qurulması üsulu olub.

Təqsirləndirilən şəxslərdən Elvin Şirinov barədə bəzi maraqlı detallar mətbuata məlumdur. Belə ki, ötən illər üzrə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"larına əsasən, əvvəllər, məsələn 2021-ci ildə Elvin Şirinov ümumiyyətlə qeyri-dövlət (özəl) ixracatçı subyektlər sırasında olmadığı halda, 2023-cü ildə qəfildən qeyri-dövlət ixracatçı subyektlərin sıralanmasında ilk onluqda 1-ci yeri tutub. Belə bir reytinq sıçrayışı mətbu orqanların da diqqətindən qaçmamış, "kiçik bir torpaq sahəsi belə olmayan" 2700187092 VÖEN-li fərdi sahibkar - kənd təsərrüfatı məhsulları ixracatçısı barədə təbii suallar səsləndirilmişdi. Məhkəmə baxışında olan iş üzrə isə Elvin Şirinovun adı əvvəllər heç yerdə keçməyən, hazırda həbsdə olan digər təqsirləndirilən Zöhrab Hidayətov tərəfindən qurulmuş böyük kölgə iqtisadiyyatı maxinasiyasının iştirakçılarından yalnız biridir. Belə maxinasiyaların pul vəsaitlərinin ölkədən başqa ad altında çıxarılması - məsələn, alınan "kənd təsərrüfatı məhsulları" formasında çıxarılması və geri qaytarılmaması məqsədləri ilə bağlı olduğu məlumdur.

# Goranboyda 2024-cü ilin yanvar-sentyabr aylarında istehlak bazarının göstəriciləri belə olub

***2024-cü ilin yanvar-sentyabr aylarında əhaliyə pərakəndə ticarət şəbəkələrindən 263148,1 min manat, əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,3 faiz çox ərzaq məhsulları, içkilər və tütün məmulatları və qeyri-ərzaq malları satılmışdır. Pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli şəkildə aşağıdakı cədvəldə xarakterizə olunur.***

**Cədvəl 1**

| Göstəricinin adı | 2024-cü ilin yanvar-sentyabr ayları | 2023-cü ilin yanvar-sentyabr ayları | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə |
|---|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi | 263148,1 | 260248,5 | 100,3 |

**Pərakəndə ticarət dövriyyəsi, min manat**

2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin mallar üzrə quruluşunda ərzaq mallarının xüsusi çəkisi çoxluq təşkil etmişdir. Belə ki, ümumi ticarət dövriyyəsinin 133125,3 min manatını və ya 50,6 faizini ərzaq məhsulları, içkilər və tütün məmulatları, 130022,8 min manatını və ya 49,4 faizini qeyri-ərzaq malları təşkil etmişdir.

***Cədvəl 2***

**Ticarət dövriyyəsinin strukturu, min manat**

| Göstəricinin adı | 2024-cü ilin yanvar-sentyabr ayları | Ümumi dövriyyədə xüsusi çəkisi, faizlə |
|---|---|---|
| Ticarət dövriyyəsinin həcmi - cəmi | 263148,1 | 100,0 |
| *o cümlədən:* ərzaq məhsulları, içkilər və tütün məmulatları | 133125,3 | 50,6 |
| qeyri-ərzaq malları | 130022,8 | 49,4 |

2024-cü ilin yanvar-sentyabr aylarında topdansatış əmtəə dövriyyəsinin həcmi 13200,2 min manat olmaqla əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 77,6 faiz təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin 59662,7 min manatı və yaxud 22,7 faizi hüquqi, 203485,4 min manatı və yaxud 77,3 faizi fiziki şəxslərin payına düşür. Pərakəndə ticarət dövriyyəsi fəaliyyət bölmələri üzrə aşağıdakı kimi xarakterizə olunur.

***Cədvəl 3***

**Pərakəndə ticarət dövriyyəsi fəaliyyət bölmələri üzrə, min manat**

| Göstəricinin adı | 2024-cü ilin yanvar-sentyabr ayları | 2023-cü ilin yanvar-sentyabr ayları | 2023-cü ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə |
|---|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi - cəmi | 263148,1 | 260248,5 | 100,3 |
| *o cümlədən:* hüquqi şəxslər | 59662,7 | 50599,8 | 116,9 |
| fiziki şəxslər | 203485,4 | 209648,7 | 96,2 |

***Qrafik 1***

**2024-cü ilin yanvar-sentyabr aylarında rayonun əmtəə dövriyyəsinin strukturu, faizlə**




2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə və topdansatış ticarət şəbəkələrində əmtəə qalığı 44378,3 min manat təşkil etmiş, bunun da 8522,9 min manatı və ya 19,2 faizi hüquqi şəxslərin, 35855,4 min manatı və ya 80,8 faizi hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin payına düşür.

***Goranboy rayon Statistika İdarəsi***

# 2024-cü ilin 9 ayında Samuxun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

***2024-cü ilin yanvar-sentyabr aylarında makroiqtisadi göstəricilər rayon iqtisadiyyatının dinamik inkişaf etdiyini əks etdirir. Hesabat dövründə məhsul istehsalı sahələrində istehsalın həcmi artmış, xidmət sahələrinin fəaliyyəti genişlənmiş, əhalinin həyat səviyyəsini əks etdirən pul gəlirləri və əməkhaqqı yüksəlib.***

İqtisadiyyatın əsas sahələrində 157539,7 min manatlıq məhsul və xidmətlər istehsal edilmişdir, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 709,3 min manat və ya 3,6 faiz az olmuşdur. Ümumi məhsul və xidmətlər buraxılışının əsas hissəsi (69,2 faiz) kənd təsərrüfatında istehsal olunmuş və kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz azalmışdır.



Kənd təsərrüfatı məhsullarının istehsalı 109064,3 min manat olmuşdur ki, bunun da 63317,0 min manatını bitkiçilik, 45747,3 min manatını isə heyvandarlıq məhsulları təşkil etmişdir.

2024-cü ilin məhsulu üçün 11691,8 hektar payızlıq bitkilərin səpini aparılmışdır. Bu əvvəlki ilə nisbətən 1307,5 hektar və ya 10,1 faiz az olmuşdur. 5715,3 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır. Bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 962,7 hektar və ya 20,3 faiz çox olmuşdur.

Təsərrüfatlarda 1936,5 ton kartof, 12173,1 ton tərəvəz, 2153,6 ton bostan, 5993,0 ton günəbaxan, 2642,0 ton qarğıdalı, 77 ton paxlalı bitkilər və 7487,2 ton meyvə, 6192,3 ton üzüm istehsal olunmuşdur.

1 oktyabr 2024-cü il tarixinə 23847 baş iribuynuzlu mal-qara, 120568 baş qoyun və keçilər mövcud olmuşdur.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 236 baş və ya 1,0 faiz artmış, qoyun və keçilərin sayı isə 4380 baş və ya 3,5 faiz azalmışdır.

Hesabat dövründə diri çəkidə ət istehsalı əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,2 faiz artaraq 3971,8 ton, süd istehsalı 1,9 faiz artaraq 21907,3 ton, yumurta istehsalı 0,6 faiz artaraq 6674,0 min ədəd, yun istehsalı 1,2 faiz azalaraq 236,9 ton olmuşdur.

2024-cü ilin yanvar-sentyabr aylarında sənayedə məhsul istehsalının və xidmətlərin həcmi 4,7 faiz azalaraq 13837,5 min manat olmuşdur.

Hesabat dövrü ərzində tikinti təşkilatları tərəfindən görülən təmir-tikinti işlərinin həcmi 17,9 faiz artaraq 2627,9 min manat olmuşdur. Təmir-tikinti işlərinin 2136,7 min manatı cari təmirin, 491,2 min manatı isə sair işlərin payına düşür.

Hesabat dövründə əsas vəsaitlərə qoyulan investisiyaların həcmi 15,8 dəfə artaraq 23172,5 min manat olmuşdur.

Tikinti-quraşdırma işlərinin həcmi 23088,8 min manat və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 46,1 dəfə çox olmuşdur. Əhalinin şəxsi vəsaiti hesabına dəyəri 892,5 min manat və ümumi sahəsi 1824,0 kvadrat metr olan 16 yaşayış evi tikilib istifadəyə verilmişdir.

Nəqliyyat və anbar təsərrüfatı sahəsində mal və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 3,9 faiz artaraq, 2306,5 min manata çatmışdır.

Sərnişin daşınması əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,1 faiz artaraq, 5885,0 min sərnişin və sərnişin dövriyyəsi də eyni artımla 52494,2 min sərnişin km olmuşdur. Hesabat dövründə 300,0 min ton yük daşınmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,4 faiz çox olmuşdur.

Rabitə sahəsi üzrə mal və xidmətlərin ümumi həcmi 53,6 faiz azalaraq 367,6 min manat olmuşdur. Hesabat dövründə telefon çəkilişi olmamış və sabit şəbəkə telefonlarının sayı isə 4385 ədəd olmuşdur.

2024-cü ilin yanvar-sentyabr aylarında ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə məhsul buraxılışının həcmi 29335,9 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 762,0 min manat və ya müqayisəli qiymətlərlə 3,4 faiz az olmuşdur.

Pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 3,4 faiz azalaraq 91674,7 min manat olmuşdur.

Topdansatış ticarət dövriyyəsi 4237,4 min manat və əvvəlki ilin müvafiq dövrünə nisbətən 1838,9 min manat və ya 76,7 faiz çox olmuşdur.

Əhaliyə 29597,8 min manatlıq ödənişli xidmət göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 8,0 faiz çox olmuşdur. Əhaliyə göstərilən ödənişli xidmətlərin 2860,5 min manatını və ya 9,7 faizini məişət xidmətləri təşkil etmişdir.

Hesabat dövründə əhaliyə 3246,8 min manatlıq iaşə xidmətləri göstərilmişdir. Bu əvvəlki ilin müvafiq dövrünə nisbətən 355,8 min manat və ya müqayisəli qiymətlərlə 9,9 faiz çox olmuşdur.

2024-cü ilin avqust ayının sonuna siyahı tərkibində olan işçilərin sayı 5578 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əməkhaqqının məbləği 627,9 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,8 faiz çox olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# Ömrünü Vətənə verən oğul...



***44 günlük haqq savaşımızda canını Vətənə, torpağa fəda edən şəhidlərin ömür yolu qısa oldu. Lakin bu müqəddəs zirvədə qərar tutanlar yaşına uyuşmayan, zaman-zaman örnək olacaq bir igidlik, vətənpərvərlik nümunəsi göstərdilər və bununla da ölümsüzlük qazandılar. 30 ilə yaxın erməni əsarətində olan əzəli-əbədi yurd yerimiz Qarabağımızın qeyrətli, xilaskar ərənləri kimi tarixin yaddaşında silinməz iz qoyan, 44 günlük zəfərimizin mərdlik, qəhrəmanlıq simvoluna çevrilən belə Vətən sevdalılardan biri də 17 mart 1995-ci ildə Cəlilabad rayonu, Göytəpə qəsəbəsində dünyaya göz açan Elçin İlqar oğlu İsmayılovdur.***

Qanında Vətən eşqi, ana mehri, el sevdası Elçin orta məktəbi başa vurub. Yaxşı işlərə, xeyirxah əməllərə görə cəmiyyətdə hörmət sahibi olub. Həyatda şərəflə, ləyaqətlə yaşamağı Vətəninə, xalqına təmənnasız xidmətdə görüb. Həmçinin doğma yurduna, elinə bağlı, mərd, ağıllı adamlardan görüb-götürdüyü üçün gənc oğlanın sadəliyi, təvazökarlığı, daxili mədəniyyəti heyrət doğurub. Belədə halallığa tapının, gözəl arzularla gələcəyə baxan Elçini qaldı ki, torpağına yağı dadanmış Vətənin taleyi çox narahat edib. Əsgərlik yaşı çatıb ordu sıralarına yola düşəndə başına toplaşan dost-tanışa dediyi də belə olub:- Milltimin xoş, azad gələcəyi naminə mübarizə meydanında işğalçı erməni dığaların başını əzməyə gedirəm. Yurdumuz dahilər diyarı, polad biləkli igidlər məskənidir. Ona murdar yağı ayağı yaraşmır...

Bəli, yurdunun tərəqqisi, insanların səadəti naminə yaşamağı bacaran Elçin İsmayılov əsgərlik həyatına tez öyrəşib. Cəbhə bölgəsində doğma Azərbaycana vicdanla, ləyaqətlə xidmət edib və Qarabağın azadlığı uğrunda döyüşə girməyə hər an hazır olub. Cəsurluğu, mərdliyi, igidliyi bütün işlərdə özünü göstərib. Vətənə sevgisi, yağıya nifrət hiss qatıldığı təlimlərdə yalnız Elçinə uğur gətirib. Əsgərliyi başa çatanda öz Vətənini qorumağı bacaran mükəmməl bir hərbiçiyə dönüb. Əlinə silah alıb yağı üstə getməyə gücünə tam güvənib...

2020-ci il 27 sentyabrda Vətən müharibəsi başlayan ilk gündən Elçin İsmayılov şiddətli döyüşlərə qatılıb. İşğalçı dığalardan ürəyincə qisas almaqla onların kabusuna çevrilib. Hər dəfə azad olunan Vətən torpağında qələbə bayrağımız dalğalananda igid əsgər yağıya qarşı daha da ürəklə vuruşub. Neçə-neçə odlardan, alovlardan keçərək yağıya qan qusduran Elçin Qaraxanbəyli kəndi istiqamətində gedən ağır müharibə meydanında son damla qanına qədər vuruşaraq şəhadətə qovuşub.

Cəlilabadın qəhrəman oğlu Elçin İsmayılov adını Azərbaycanın yeni, şanlı tarixinə yazmaqla, həm də dövlət onun göstərdiyi şücaətini "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görüb.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Qusar rayonunda bol məhsul gözlənilir

***Rayonda taxıl biçini kompaniyası başa çatıb. Belə ki, 23123 hektar biçiləcək sahələrdən 56626,8 ton taxıl yığılmışdır.***

Hər hektardan orta məhsuldarlıq 24,5 sentner təşkil edir. Biçilmiş 15580 hektar buğda sahəsindən 39262 ton buğda,7541 hektar arpa sahəsindən 17360 ton arpa, 2 hektar vələmir sahəsindən 4,8 ton vələmir yığılmışdır.

01 oktyabr 2024-cü il vəziyyətinə rayonun təsərrüfatlarında 2005 hektar qazılmış kartof sahəsindən 30295,6 ton kartof, 1399 hektar tərəvəz sahəsindən 23726,9 ton tərəvəz yığlmışdır. Bu göstəricilər keçən ilin eyni dövründən çoxdur.

Rayonda bağçılığın geniş inkişaf etməsi meyvənin bol olmasına gətirib çıxarmış, bağlardan 43755,1 ton meyvə yığılmışdır. Meyvənin əsas hissəsini alma, gilas, albalı və fındıq məhsulu təşkil edir. Bağlardan bol məhsul gözlənilir və məhsuldarlığın keçən illərə nisbətən yüksək olacağına zəmanət verir. Məhsul yığımı davam edir.

***Qusar rayon Statistika idarəsinin aparıcı məsləhətçisi Əhmədəli Balakişiyev***

# "Moskva və Pxenyanın yaxınlığı heç kimi qorxutmamalıdır" - Peskov



***"Moskva ilə Pxenyan arasında hərbi razılaşmalar heç kimi qorxutmamalı və narahat etməməlidir".***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Kremlin sözçüsü Dmitri Peskov deyib.

"Biz imzaladığımız sazişə sadiq qalırıq. Qonşumuzla bütün sahələrdə münasibətləri inkişaf etdirməkdə öz maraqlarımıza sadiq qalırıq və bu, heç kimi qorxutmamalı və narahat etməməlidir", - Peskov ifadə edib.

O, Rusiya Federasiyası və KXDR-in münasibətləri inkişaf etdirmək hüququnun suveren olduğunu vurğulayıb.

***Gülayə Mecid***

# "Ukrayna münaqişəsinin həllində iştirak etməliyik" - Lukaşenko

***Ukrayna münaqişəsindən söhbət gedəndə Minsk danışıqlar masası arxasında olmalıdır.***

"Unikal" xəbər verir ki, bunu Belarus Prezidenti Aleksandr Lukaşenko Avrasiya Təhlükəsizlik Problemləri üzrə Minsk II Beynəlxalq Konfransında deyib.

"Bu, bizim təhlükəsizlik zəmanətlərimizlə bağlı məsələdir. Bununla bağlı biz başqa heç nə tələb etmirik və bu istiqamətdə işləməyə hazırıq", - deyə ölkə başçısı qeyd edib.

***Ağarza Elçinoğlu***

# Ermənistanda xalq milisləri ərazi müdafiə qüvvələri ilə əvəz olunur

***Ermənistan hökuməti bugünkü iclasında "Müdafiə haqqında" qanuna dəyişikliklər paketini və bir sıra digər qanun layihələrini təsdiqləyib.***



"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, dəyişikliyə əsasən, nizamsız mülki birləşmələr öz adlarını xalq milislərindən ərazi müdafiə qüvvələrinə dəyişdirəcəklər.

Ümumilikdə isə ərazi müdafiə qüvvələrinin vəzifələri dəyişməz olaraq qalacaq: nizami orduya dəstək vermək, Silahlı Qüvvələrin bölmələri ilə birgə fərdi döyüş tapşırıqlarını yerinə yetirmək, düşmənin təxribat hərəkətlərinə qarşı mübarizədə iştirak etmək, müdafiəyə dəstək vermək.

Ərazi müdafiə qoşunları ehtiyatda olanlardan könüllülük əsasında formalaşacaq və onlara Silahlı Qüvvələrin yerli komandirləri rəhbərlik edəcək.

***Ağarza Elçinoğlu***

# Nazir BMT-dəki çıxışına görə işdən çıxarıldı

***Argentina prezidenti Xavyer Miley BMT- də ABŞ-nin Kubaya qarşı sanksiyalarının ləğvinə səs verən xarici işlər naziri Diana Mondinonu vəzifəsindən azad edib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

"Ölkəmiz qəti şəkildə Kuba diktaturasına qarşıdır və insan hüquqlarını və fərdi azadlıqları pozan bütün rejimləri pisləyən güclü xarici siyasət mövqeyini qoruyacaq", - Argentina liderinin ofisi bildirib.

Mondinonun Kubaya verdiyi dəstəyə görə vəzifəsindən kənarlaşdırılması, prezidentliyə namizədliyindən bəri onu dəstəkləyən Maylinin əsas tərəfdarlarından birinə qarşı bir addımdır. Qeyd olunub ki, diplomatik xidmət rəhbəri təatrallıq və təşkilatlanma ilə seçilən siyasətçinin kampaniyası zamanı Buenos-Ayresin beynəlxalq nüfuzunu gücləndirib.

***Ağarza Elçinoğlu***

# "Putin Şimali Koreya qoşunları ilə belə müharibədə qalib gəlməyəcək" - Pentaqon rəhbəri

***"Şimali Koreya qoşunlarının Kurska cəlb edilməsi də Vladimir Putinə Ukraynaya qarşı açdığı müharibəyə kömək etməyəcək".***



"Unikal" "European Pravda"ya istinadən xəbər verir ki, bunu Pentaqonun rəhbəri Lloyd Ostin Cənubi Koreyanın müdafiə naziri Kim Yonqhyunla keçirdiyi mətbuat konfransında deyib.

Amerika müdafiə departamentinin rəhbəri bildirib ki, o, Cənubi Koreyalı həmkarı ilə "bu təhlükəli və sabitliyi pozan eskalasiyaya" mümkün reaksiyanı müzakirə edib.

"İndi Şimali Koreyanın Rusiyanın şərqinə təlim keçmək üçün 10 minə yaxın əsgər göndərdiyinə dair sübutlar var və həmin Şimali Koreya qoşunlarının bir hissəsi artıq Ukraynaya yaxınlaşıb", - Ostin bildirib.

Onun sözlərinə görə, Şimali Koreya əsgərləri rus geyimindədirlər və rus texnikası ilə təmin olunurlar.

***Gülayə Mecid***

# Lavrov Qərbin Ermənistan-Azərbaycan münasibətlərinə müdaxiləsindən danışdı

***"Qərb israrla Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesində xidmətlər tətbiq edir".***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər naziri Sergey Lavrov Minskdə Avrasiya təhlükəsizliyinə dair beynəlxalq konfransda deyib.

"Qərb Avrasiya qitəsinin digər hissələrində öz dağıdıcı fəaliyyətini dayandırmır, o, öz xidmətlərini israrla Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına yönəldir", - Lavrov bildirib.

Nazir qeyd edib ki, 20 illik işğaldan sonra Əfqanıstanı tərk edən ABŞ və onun müttəfiqləri bu ölkədə vəziyyətin sabitləşdirilməsinin kövrək prosesinə müdaxilə etmək istəyir, Mərkəzi Asiya ölkələrində hərbi mövcudluğu üçün də bəhanələr uydururlar.

***Ağarza Elçinoğlu***

# Venesuela ilə Braziliya arasında gərginlik - Səfir geri çağırıldı

***Venesuela Braziliyadakı səfirini "müdaxiləçi" bəyanatlara əsaslanaraq məsləhətləşmələr üçün geri çağırıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Venesuela Xarici İşlər Nazirliyindən verilən açıqlamada, Braziliya prezidenti Luiz İnasio Lula da Silvanın məsul müşaviri Celso Amorimin Venesuelanı hədəf alan açıqlamalarına reaksiya verən səfir Manuel Vadellin məsləhətləşmələr üçün ölkəyə dönəcəyi bildirilib.

"Bildirmək istərdik ki, prezident Nikolas Maduronun göstərişinə əsasən, Braziliyadakı səfirimiz Manuel Vadell dərhal məsləhətləşmələr üçün çağırılıb", - məlumatda deyilir.

Amorim oktyabrın 29-da verdiyi açıqlamada Maduro hökumətini iyulun 28-də keçirilən prezident seçkilərində şəffaf olmamaqda ittiham edib. Maduronun seçki qələbəsini indiki vəziyyətdə tanımayacaqlarını vurğulayan Amorim, heç



bir ölkənin daxili işlərinə qarışmadıqlarını və problemlərin sülh yolu ilə həllini istədiklərini bildirib.

***Gülayə Mecid***

# Kim Çen In KXDR-in nüvə planlarını açıqladı

***Şimali Koreya qitələrarası ballistik raketi (ICBM) sınaqdan keçirdiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Şimali Koreyanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bu ICBM buraxılışını şərh edən ölkə lideri Kim Çen In "Sınaq atəşi son vaxtlar regionda vəziyyəti qəsdən gərginləşdirən və təhlükəsizliyə təhdid yaradan rəqibləri məlumatlandırmaq məqsədinə tam cavab verən hərbi əməliyyatdır", - deyib. Onun sözlərinə görə, Koreya yarımadasındakı təhlükəsizlik vəziyyəti və Şimali Koreyaya qarşı durmadan artan potensial təhdidlər və çağırışlar Pxenyandan strateji zərbə qabiliyyətini gücləndirməyə davam etməyi tələb edir.

"Bəyan edirəm ki, KXDR öz nüvə qüvvələrini gücləndirmək üçün heç vaxt öz kursunu dəyişməyəcək", - Şimali Koreya lideri vurğulayıb.

***Gülayə Mecid***

# "Barselona"da yeni müqavilə - Rəsmi



***"Barselona" futbolçusu Fermin Lopezlə yeni müqavilə imzalayıb.***

"Unikal" qol.az-a istinadən xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Kataloniya klubu 21 yaşlı ispaniyalı yarımmüdafiəçi ilə 2029-cu ilə qədər müqavilə imzalayıb. Yeni müqaviləyə əsasən futbolçunu digər komanda transfer etmək istəyərsə 500 milyon avro məbləğində pul ödəməlidir. Bu, futbolçu və klub arasında razılıq nəticəsində dəyişə də bilər.

Qeyd edək ki, bu mövsüm Fermin Lopez "Barselona"nın heyətində 6 oyuna çıxıb və 2 qolun ötürməsini edib.

# Rusiyalı boksçu diskvalifikasiya edildi

***Beynəlxalq Test Agentliyi (ITA) rusiyalı boksçu Aleksandr Povetkini yarışlardan kənarlaşdırıb.***

"Unikal" xəbər verir ki,məlumatı ITA-nın mətbuat xidməti yayıb.

Antidopinq qaydalarını pozmaqda şübhəli bilinən Povetkin Moskva antidopinq laboratoriyasının məlumat bazası əsasında oktyabrın 21-dən etibarən müvəqqəti diskvalifikasiya olunub.

Qeyd edək ki, idmançının qaydaları pozması halı 2014-cü ilin oktyabrında qeydə alınıb.



# Boksçumuz dünya birinciliyinin finalında

***Azərbaycan boksçusu Bilalhəbaşi Nəzərov Monteneqronun Budva şəhərində gənclər arasında keçirilən dünya birinciliyində finala yüksəlib.***

"Unikal" xəbər verir ki, 48 kq-da mübarizə aparan milli üzvü yarımfinalda Osman Çadqurla (Mərakeş) qarşılaşıb. Görüş Nəzərovun 5:0 (30:26, 30:26, 30:26, 29:27, 30:26) hesablı qələbəsi ilə yekunlaşıb.



Bilalhəbaşi finalda özbəkistanlı Safyiddin Sabirovla döyüşəcək.

Qadın boksçumuz Aynur Mikayılova (57 kq) isə dünya birinciliyini bürünc medalla başa vurub. O, yarımfinalda Pinar Benekə (Türkiyə) 1:4 hesabı ilə məğlub olub. Mikayılova bununla da gənc qız boksçular arasında ilk medal qazanan azərbaycanlı kimi tarixə düşüb.

Qeyd edək ki, daha 3 boksçumuz yarımfinal görüşünə çıxacaq.

# Millimiz qələbə qazandı

***Monteneqronun paytaxtı Podqoritsada təlim-məşq toplanışında olan 18 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası növbəti yoxlama görüşünü keçirib.***

"Unikal" xəbər verir ki, U-18 Monteneqronun müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb.

Oyun millimizin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Komandamızın heyətində qolları 5-ci dəqiqədə Emin Feyzullayev və 56-cı dəqiqədə Rəşad Alışov vurublar.

Qeyd edək ki, komandalar arasında oktyabrın 29-da keçirilən ilk oyunda Monteneqro yığması 2:0 hesablı qələbə qazanıb.



# "Real Madrid"in oyunu təxirə salındı

***İspaniya La Liqasının XII turunda keçirilməli olan "Valensiya" - "Real Madrid" oyunu təxirə salınıb.***

"Unikal" xəbər verir ki, buna ölkə ərazisində baş verən güclü qasırğa səbəb olub.

Daha əvvəl qarşılaşmanın noyabrın 2-də oynanılması nəzərdə tutulmuşdu.



Əlverişsiz hava şəraitinə görə İspaniya Kral Kubokunu ilkin mərhələsində keçirilməli olan "Parla" - "Valensiya" və "Pontevedra"- "Levante" matçları da təxirə salınıb.

# "Neftçi" "Araz-Naxçıvan"la oyuna itkilərlə çıxacaq



***"Neftçi" Misli Premyer Liqasının XII turunda "Araz-Naxçıvan"la oyuna itkilərlə çıxacaq.***

Klubdan "Unikal"a verilən məlumata görə, "ağ-qaralar"ın beş futbolçusu - Filip Ozobiç, Andre Şinyaşiki, Alfa Konte, Azər Salahlı və Rəhman Hacıyev zədə səbəbindən meydana çıxa bilməyəcəklər. Portuqaliyalı yarımmüdafiəçi Rafael Quzzonun oynayıb-oynamayacağı isə sual altındadır.

Qarşılaşma noyabrın 1-də "Neftçi Arena"da keçiriləcək.

# Azərbaycan Kubokunda 1/8 finalın daha bir iştirakçısı məlum oldu

***Futbol üzrə Azərbaycan Kubokunda II təsnifat mərhələsinin daha bir oyunu keçirilib.***




"Unikal" xəbər verir ki, "İmişli" və "Cəbrayıl" komandaları qarşılaşıblar. Şamaxı Olimpiya İdman Kompleksinin stadionunda reallaşan görüş nominal meydan sahiblərinin 5:1 hesablı qələbəsi ilə nəticələnib. Mərkəzi Aran təmsilçisi 1/8 finalda "Kəpəz"ə rəqib olub.

İkinci təsnifat mərhələsinə hazırda davam edən "Qəbələ" - "Baku Sportinq" matçı ilə yekun vurulacaq.

Qeyd edək ki, II təsnifat mərhələsinin əvvəlki oyunlarında "Turan Tovuz" "Hypers Guba"nı 7:2, MOİK "Şimal"ı 3:1, "Araz-Naxçıvan" "Şahdağ Qusar"ı 4:0, "Kəpəz" "Ağdaş"ı, "Səbail" "Dinamo"nu 6:0, "Şamaxı" "Şəmkir"i 6:1, "Mingəçevir" "Zaqatala"nı 1:0, "Qaradağ Lökbatan" "Karvan"ı 3:0, "Difai" isə "Şəfa"nı 3:2 hesabı ilə üstələyərək 1/8 finala vəsiqə qazanıb.

# Libertadores Kubokunda Braziliya finalı olacaq



***Cənubi Amerikanın futbol klublarının mübarizə apardığı Libertadores Kubokunda digər finalçı da müəyyənləşib.***

"Unikal" xəbər verir ki, ikinci yarımfinal oyununda Uruqvayın "Penyarol" və Braziliyanın "Botafoqo" komandaları üz-üz gəlib. Görüş ev sahiblərinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Lakin ilk matçda 5:0 hesabı ilə qalib gələn Braziliya klubu iki görüşün nəticəsinə (6:3) əsasən, adını finala yazdırıb.

"Botafoqo"nun həlledici oyundakı rəqibi isə Braziliyanın digər təmsilçisi "Atletiko Mineyro" olacaq. Qarşılaşma dekabrın 1-də keçiriləcək.

# Mahir Emreli qol vurdu, amma komandası uduzdu

***Azərbaycan millisinin hücumçusu Mahir Emreli Almaniyanın "Nürnberq" komandasının heyətində üçüncü qolunu vurub.***



"Unikal" xəbər verir ki, 27 yaşlı forvard Almaniya Kuboku çərçivəsində "Hoffenhaym"la keçirilən görüşün 47-ci dəqiqəsində komandasının yeganə topuna imza atıb.

Matç "Nürnberq"in 1:2 hesablı məğlubiyyəti ilə bitib.

M.Emreli daha əvvəl II Bundesliqanın IX turunda "Qroyter"ə və X turunda isə "Reqensburq"a qarşı oyunlarda da fərqlənmişdi.